Üzeyir Hacıbəyli

BEYNƏLXALQ MUSİQİ FESTİVALI

# ÜZEYİR HACIBƏYLİNİN 130 İLLİYİNƏ HƏSR OLUNMUŞ VII BEYNƏLXALQ MUSİQİ FESTİVALI

18-28 sentyabr 2015-ci il

Bakı-2015

Ar 2015/1516

HEYDƏR ƏLİYEV FONDU

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi



# Üzeyir Hacıbəyli
BEYNƏLXALQ MUSİQİ FESTİVALI

103401

# VII ÜZEYİR HACIBƏYLİ BEYNƏLXALQ MUSİQİ FESTİVALI

## 18-28 SENTYABR 2015-Cİ İL

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası ARXİV

Щ313(2А)-8м

# VII Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının proqramı

| | | |
|---|---|---|
| **18 sentyabr 10.00** | **Fəxri Xiyaban**<br>Üzeyir Hacıbəylinin, habelə görkəmli mədəniyyət və incəsənət xadimlərinin məzarlarının ziyarəti |
| **18 sentyabr 10.30** | **Milli İncəsənət Muzeyinin bağı**<br>Milli İncəsənət Muzeyinin bağında yerləşən "Güllələnmiş heykəllər" abidəsinin ziyarəti |
| **18 sentyabr 11.00** | **Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının qarşısında**<br>Üzeyir Musiqi Gününə həsr olunmuş tədbir<br>İştirak edirlər:<br>Azərbaycan Dövlət Xor Kapellası, Müdafiə Nazirliyinin Nümunəvi Hərbi Orkestri |
| **18 sentyabr 14.00** | **Ü.Hacıbəylinin ev muzeyi**<br>"Üzeyir Hacıbəyli-130"<br>tədbir |
| **18 sentyabr 19.00** | **Heydər Əliyev Sarayı**<br>Beynəlxalq Musiqi Festivalının açılışı<br>Üzeyir Hacıbəylinin 130 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi |
| **19 sentyabr 14.00** | **Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**<br>"RUSİYA SAKSOFON KVARTETİ"<br>Vladimir Koznov (soprano saksofon)<br>Stanislav Pyalov (alt saksofon)<br>Stanislav Prijimov (tenor saksofon)<br>İlya Boqomol (bariton saksofon) |
| **19 sentyabr 19.00** | **Azərbaycan Dövlət Filarmoniyası**<br>Liyepaya simfonik orkestri (Latviya)<br>Dirijor<br>Yalçın Adıgözəlov |
| **19 sentyabr 19.00** | **Azərbaycan Dövlət Musiqili Teatrı**<br>Üzeyir Hacıbəyli "O olmasın, bu olsun"<br>ikihissəli musiqili komediya<br>Dirijor<br>Nazim Hacıəlibəyov |
| **19 sentyabr 19.00** | **Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**<br>Üzeyir Hacıbəyli "Leyli və Məcnun" üçhissəli opera<br>Dirijor<br>Sevil Hacıyeva |



| | |
|---|---|
| **20 sentyabr 19.00** | **Azərbaycan Dövlət Filarmoniyası**<br>Liyepaya simfonik orkestri (Latviya)<br>Azərbaycan Dövlət Xor Kapellası<br>Kapellanın bədii rəhbəri<br>Gülbacı İmanova<br>Dirijor<br>Yalçın Adıgözəlov<br>Solist<br>İnarə Babayeva (soprano) |
| **20 sentyabr 19.00** | **Azərbaycan Dövlət Musiqili Teatrı**<br>Ü.Hacıbəyli "Ər və arvad"<br>ikihissəli musiqili komediya |
| **21 sentyabr 15.00** | **Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi**<br>Mikele Kampanella (İtaliya) və Mina Yarvinin (Estoniya)<br>iştirakı ilə ustad dərsi |
| **21 sentyabr 15.00** | **AĞCABƏDİ RAYON**<br>**"Qarabağ" Muğam Mərkəzi**<br>F.Əmirov adına Əməkdar kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı<br>Bədii rəhbər<br>Ağaverdi Paşayev |
| **21 sentyabr 19.00** | **Beynəlxalq Muğam Mərkəzi**<br>Rusiya Akademik Böyük Teatrının Brass-kvinteti<br>Aleksey Kornilyev (truba, flügelhorn)<br>Yevgeni Quryev (truba)<br>Aleksey Rayev (valtorna)<br>Erkin Yusupov (trombon)<br>Aleksey Jbanov (truba) |
| **22 sentyabr 12.00** | **"Xəzər" Universiteti**<br>Beynəlxalq müsabiqələr laureatı Oleq Poxanovskinin (Kanada)<br>ustad dərsi |
| **22 sentyabr 12.00** | **Azərbaycan Bəstəkarlar İttifaqı**<br>"Üzeyir Hacıbəyli-130" elmi konfrans |

22 sentyabr
14.00

**Musiqi Mədəniyyəti Dövlət Muzeyi**
Kamera musiqisi konserti
Solistlər
Ziba Rəcəbli (violin)
Məmməd Rəcəbli (klarnet)
Fatimə Cəfərzadə (soprano)
Məhərrəm Hüseynli (bariton)
İlahə Sadıxzadə (piano)
Dilarə Əliyeva (soprano)

22 sentyabr
19.00

**Azərbaycan Dövlət Filarmoniyası**
"EMMA Avropa və Aralıq Dənizi Musiqi Akademiyasının təqdimatı"
Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri
Dirijor
Əyyub Quliyev
Solistlər
Mikele Kampanella (İtaliya) piano
Kinan Azmeh (Suriya) klarnet
Mina Yarvi (Estoniya) violin

23 sentyabr
12.00

**Azərbaycan Bəstəkarlar İttifaqı**
"Müslüm Maqomayev-130" elmi konfrans

23 sentyabr
18.00

**Kamera və Orqan Musiqisi Zalı**
Kamera musiqisi konserti
Beynəlxalq müsabiqələr laureatı
Oleq Poxanovski (Kanada) violin
Zülfiyyə Sadıxova (piano)

23 sentyabr
19.00

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**
C.Puççini "Manon Lesko" operası, konsert ifası (premyera)
Dirijor
Cavanşir Cəfərov

23 sentyabr
19.00

**Azərbaycan Dövlət Filarmoniyası**
Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri
Dirijor
Hakan Şensoy (Türkiyə)
Solist
Sinan Erşahin (Türkiyə) gitara

23 sentyabr
19.00

**Beynəlxalq Muğam Mərkəzi**
Fortepiano musiqisi gecəsi
Tanel Joamets (Estoniya)

24 sentyabr
19.00

**Beynəlxalq Muğam Mərkəzi**
"Bülbülsayağı" adlı musiqi layihəsi
Solist
Anar Şuşalı (tenor)



24 sentyabr
19.00

**Azərbaycan Dövlət Filarmoniyası**
"Z.Paliaşvili adına Tbilisi Dövlət Opera və Balet Teatrının Kamera Orkestri"
Dirijor
Fəxrəddin Kərimov
Solist
Lizi Ramişvili (Gürcüstan) cello

25 sentyabr
12.00

**Azərbaycan Bəstəkarlar İttifaqı**
"Üzeyir Hacıbəyli və Müslüm Maqomayev-130"
Kamera konserti

25 sentyabr
17.00

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
"Fortepiano dueti" konsert
Nəzakət Rimazi
Elnarə Kəbirlinskaya

25 sentyabr
19.00

**Azərbaycan Dövlət Filarmoniyası**
Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri
Dirijor
Fabrisio Festa (İtaliya)
Solistlər
Rikkardo Pyaçentini (piano) İtaliya
Tisiani Skandaletti (soprano) İtaliya
Samir Cəfərov (tenor)

26 sentyabr
19.00

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**
Ü.Hacıbəyli "Arşın mal alan" ikihissəli musiqili komediya
Dirijor
Əyyub Quliyev

27 sentyabr
19.00

**Dövlət Mahnı Teatrı**
"Dan ulduzu" ansamblının konserti

27 sentyabr
19.00

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı**
F.Əmirov "Min bir gecə" ikihissəli balet
Dirijor
Əyyub Quliyev

28 sentyabr
19.00

**Azərbaycan Dövlət Filarmoniyası**
Beynəlxalq Musiqi Festivalının bağlanışı
Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri
Dirijor
Fəxrəddin Kərimov
Solist
Andrey Şibko (Rusiya) piano





## 18 SENTYABR | 14.00

### Ü.HACIBƏYLİNİN EV MUZEYİ

Üzeyir Hacıbəyliyə həsr olunmuş tədbir



## 18 SENTYABR | 19.00

### HEYDƏR ƏLİYEV SARAYI

## Beynəlxalq Musiqi Festivalının açılışı Üzeyir Hacıbəylinin 130 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi

*Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri*
*Bədii rəhbər və baş dirijor: Rauf Abdullayev*
*Azərbaycan Dövlət Xor Kapellası*
*Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası, solistlər*
*Azərbaycan Dövlət Rəqs Ansamblı*
*Azərbaycan Dövlət Musiqili Teatrı*

*Solistlər:*
*Azər Zeynalov*
*Samir Cəfərov*
*Ramil Qasımov*
*Zemfira İsmayılova*
*Afaq Abbasova*
*Nigar Şabanova*
*Elnur Zeynalov*





## 19 SENTYABR | 14.00

### Ü.HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI

## "Rusiya saksofon kvarteti"

*Üzvləri:*
*Vladimir Koznov (soprano saksofon)*
*Stanislav Pyalov (alt saksofon)*
*Stanislav Prijimov (tenor saksofon)*
*İlya Boqomol (bariton saksofon)*

*Proqram:*
*İ.S.Bax İtalyan konserti*
*F.M.Janjan Kvartet*
*V.A.Motsart "Sehirli fleyta" operasından "Ariya"*
*A.Şnitke "Qədim üslubda süita"*
*A.Skryabin Mazurka №4 op.3*
*Y.Povolotski "Üç pyes"*
*M.Nayman "Song for Tony"*
*F.Geys "Patchwork"*
*P.İttyurralde "Yunan süitası"*
*H.Vayberni "Ula in Africa"*
*K.Doqe "Bananovıy req"*
*J.Matita "Çin reqtaymı"*



**"RUSİYA SAKSOFON KVARTETİ"** – dörd gənc, enerjili və istedadlı ifaçılardan ibarət unikal ansambldır. Son beş il ərzində, kollektiv həm Rusiya, həm də xarici ölkələrdə çıxış edir. Kvartet böyük mədəniyyət mərkəzlərində konsert və festivallarda daima çıxış edir: Moskva, Sankt-Peterburq, Yekaterinburq, Novosibirsk və s. 2013-cü ildən, "Rusiya saksofon kvarteti" Antigua Winds inc və Bird Saxboutique şirkətləri ilə fəal əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində kvartetin artistləri çoxsaylı ustad dərsləri, yaradıcılıq görüşləri və seminarlar keçirirlər.



**VLADİMİR KOZNOV**
**(soprano-saksofon)**
Petropavlovsk-Kamçatsk şəhərində anadan olmuşdur. 2015-ci ildə Qnesinlər adına Rusiya Musiqi Akademiyasını bitirmişdir (Rusiyanın Xalq Artisti - M.K.Şapoşnikovanın sinfi). 2010-cu ildən B.V.Asafyev adına uşaq musiqi məktəbində dərs deyir. M.Rostropoviç Fondunun təqaudçüsü olmuşdur. Respublika və beynəlxalq müsabiqələr laureatıdır.



**STANİSLAV PYALOV**
**(alt-saksofon)**
Baranoviç şəhərində anadan olmuşdur (Belarus). 2011-ci ildə Qnesinlər adına Rusiya Musiqi Akademiyasına daxil olmuşdur (Rusiyanın Xalq Artisti - M.K.Şapoşnikovanın sinfi). 2013-cü ildə K.Delyanqle, V.David, A.Bornkamp, M.Xirano, D.Rayone, J-N. Mişanın ustad dərslərinin iştirakçısı olmuşdur (Fransa, 2008). A.Saks adına saksofon ifaçılarının Beynəlxalq müsabiqəsinin diplomantıdır (Belçika).



**STANİSLAV PRİJİMOV**
**(tenor-saksofon)**
Podolsk şəhərində anadan olmuşdur. 2012-ci ildə Qnesinlər adına Rusiya Musiqi Akademiyasını bitirmişdir (Rusiyanın Xalq Artisti - M.K.Şapoşnikovanın sinfi). Rusiya Gənclər Delphic Oyunlarının qalibi (2008, 2009, 2010), "Selmer-Paris" (Kiyev, 2003) beynəlxalq müsabiqənin laureatıdır. K.Delyanqle, V.David, J-N.Mişanın ustad dərslərinin iştirakçısı olmuşdur (Fransa, 2008). Dövlət Nəfəs Alətləri Orkestrinin artistidir.



**İLYA BOQOMOL**
**(bariton-saksofon)**
Serpuxov şəhərində anadan olmuşdur. 2008-2009-cu illərdə Moskva Dövlət Pedaqoji Universitetində təhsil almışdır (A.Y.Kravçenkonun sinfi). 2011-ci ildə İlya Boqomolun təşəbbüsü ilə "Rusiya saksofon kvarteti" yaradılmışdır. 2014-cü ildə Qnesinlər adına Rusiya Musiqi Akademiyasını bitirmişdir (Rusiyanın Xalq Artisti - M.K.Şapoşnikovanın sinfi). Müasir musiqi festivallarının daimi iştirakçısıdır. Respublika və beynəlxalq müsabiqələr laureatı, Moskva Dövlət Filarmoniyasının solistidir.



## 19 SENTYABR | 19.00

## AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI

## Liyepaya simfonik orkestri (Latviya)

*Dirijor: Yalçın Adıgözəlov*

*Proqram:*
*Q.Qarayev "Don Kixot" simfonik qravürləri*
*K.Debüssi-A.Qəmbərli "Prelüd № 4"*
*R.Ştraus "Tod und Verklörung" simfonik poeması*
*K.Debüssi Noktürn № 2*



**LİYEPAYA SİMFONİK ORKESTRİ**
Liyepaya Simfonik orkestri 1881-ci ildə təsis edilmişdir. Latviyanın yalnız Liyepaya şəhərində simfonik orkestr mövcuddur. Kollektiv Liyepaya və Riqada müntəzəm olaraq konsert proqramları ilə çıxış edir. Orkestrin baş dirijoru İmant Resnisdir. 2006-cı ildə orkestr musiqi sahəsində Latviyanın yüksək dövlət mükafatına layiq görülmüşdür. 2010-cu ildə Liyepaya Simfonik orkestrinə milli orkestri statusu verilmişdir. Avstriya, İspaniya, İsveç, Polşa, Malayziya, Oman, Litva, Yunanıstan, Estoniya, Çin, Hindistan və s. xarici ölkələrdə konsert proqramları ilə çıxış etmişdir. Odradek Records, Toccata Classics, Wergo və s. məşhur səsyazma şirkətləri ilə əməkdaşlıq etmişdir. Bir çox konsert salonlarında çıxış etmişdir: Riqada "Ziemeļblāzma" Mədəniyyət Sarayı, Latviyada "Gaismas Pils" adlı Milli kitabxana, "Gors" konsert zalı və s.



**YALÇIN ADIGÖZƏLOV**
**(dirijor)**
Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasında (fortepiano), Sankt-Peterburq Dövlət Konservatoriyası və Vyana Musiqi Akademiyasında opera və simfonik dirijorluğu fakültəsində təhsil almışdır. 1989-cu ildən Azərbaycan Dövlət Simfonik orkestrinin dirijoru, 1991-1998-ci illər bədii rəhbər və baş dirijoru vəzifəsində çalışmışdır. 1991-1993-cü illərdə Avstriya hökuməti ilə birlikdə keçirilən "Motsart festivalları"nın bədii rəhbəri olmuşdur. 1998-2000-ci illərdə Rusiya Dövlət Radio və Televiziya Simfonik orkestrinin, 2001-2004-cü illərdə İstanbul Dövlət Operasının dirijoru vəzifəsində çalışmışdır. 2000-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijorudur. 2002-ci ildən Moskva-Helikon Opera Teatrı, 2010-cu ildən Liyepaya Simfonik orkestri ilə əməkdaşlıq edir. ABŞ, Meksika, Braziliya, Cənubi Afrika, İngiltərə, İtaliya, İspaniya, Almaniya, Lüksemburq, Avstriya, Belçika, Rumıniya, Macarıstan, Çin,Türkiyənin aparıcı orkestrləri ilə dünyanın məşhur Barbican Concert hall, London Cadogan Hall, Westminster Central Hall, Arena di Verona, Teatro Municipal do Rio de Janeiro, Berlin Konzerthaus, Linder Auditorium, Kiev, Minsk, Astana, Pekin operaları,
Sankt - Petersburg Philharmonic, Yekaterinburg Philharmonic, Latvian National Simphony, Orchestra Italiana del Cinema, Johannesburg Philharmonic, və b. görkəmli kollektivlərlə əməkdaşlıq edir. P.I.Çaykovski adına Böyük Simfonik orkestri, İstanbul Opera orkestri, Rusiya Televiziya və Radio orkestri, Liyepaya Simfonik orkestri ilə birgə ABŞ, İngiltərə,Rusiya və Latviyada 12 disk yazdırmışdır. Azərbaycan Respublikasının xalq artisti, Prezident mükafatçısı, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və Azərbaycan Milli Konservatoriyasının professorudur.



# 19 SENTYABR | 19.00

## AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ TEATRI

## Üzeyir Hacıbəyli "O olmasın, bu olsun"
ikihissəli musiqili komediya

*Baş dirijor: Nazim Hacıəlibəyov*
*Rollarda: Şövqi Hüseynov, Ələkbər Əliyev, Amil Həsənoğlu, Səidə Şərifəliyeva, Afaq Başirqızı, Hüseyn Əlili, Əliməmməd Novruzov, Əkbər Əlizadə, Nadir Xasiyev, Əzizağa Əzizov, Novruz Əliyev*



**ÜZEYİR HACIBƏYLİ "O OLMASIN, BU OLSUN" ("MƏŞƏDİ İBAD")**
Azərbaycan milli operetta janrının banisi Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" ("Məşədi İbad") əsəri 1911-ci ildə yazılmış, müxtəlif teatr truppaları tərəfindən dəfələrlə tamaşaya qoyulmuşdur.
Bu tamaşalarda əsas rolları xalqımızın müqtədir sənətkarları Mirzağa Əliyev, Cahan Talışınskaya, Əhməd Anatollu, Əhməd Ağdamski, Münəvvər Kələntərli, Hacıbaba Bağırov və başqaları oynamışlar.
1938-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı təşkil olunandan sonra bu əsər 1946-cı ildə yenidən hazırlanmış, tamaşaçıların böyük rəğbətini qazanmışdır. "O olmasın, bu olsun" əsəri yüksək bədii keyfiyyətləri ilə teatr ictimaiyyətinin nəzərini cəlb etmişdir.
Operettadakı hadisələr XX əsrin əvvəllərində, qadın hüquqlarının pozulduğu, onların tacirlər, ağalar, bəylər tərəfindən istismar olunduqları dövrü əhatə edir. Tacir Məşədi İbad da belə ixtiyar sahiblərinin tipik nümayəndəsidir. Onun gənc Gülnazla evlənməyə can atması, cavan, ağıllı, yeni fikirli Sərvərlə rəqabət aparması müəllifin gülüş hədəfinə çevrilmişdir...
Əslində Məşədi İbadı bu addımı atmağa təhrik edən təkcə varlı-dövlətli olması deyil, həm də bütün sərvətini qumarda uduzub müflisləşən Rüstəm bəyin tamahkarlığı, pula hərisliyidir. O, gənc qızını qoca kişiyə yalnız ondan daha çox pul qoparmaq naminə verməyə razılaşıb.
Əsər boyu həm Məşədi İbad, həm də onu əhatə edən fırıldaqçı və hər şeydə özü üçün xeyir güdən "intiligent" təbəqənin iç üzü məharətlə açılır və beləliklə də cəmiyyət öz keçmişindən gülə-gülə ayrılmağa can atdığını göz önündə sərgiləyir.
Azərbaycan teatr sənəti tarixinə qızıl hərflərlə yazılmış "O olmasın, bu olsun" operettasının uğurlu tamaşaları onlarla gülüş ustasının, gənc aktyor nəsillərinin inkişafında böyük rol oynamışdır.

# 19 SENTYABR | 19.00

## AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI

## Üzeyir Hacıbəyli "Leyli və Məcnun"

üçhissəli opera

*Dirijor: Sevil Hacıyeva*
*Solistlər:*
*Nazakət Teymurova (xanəndə)*
*Mənsum İbrahimov (xanəndə)*



**ÜZEYİR HACIBƏYLİ "LEYLİ VƏ MƏCNUN" OPERASI**

"Leyli və Məcnun" Üzeyir Hacıbəylinin ilk operasıdır. 1907-ci ildə yazılmış, 1908-ci il yanvarın 12-də Tağıyev teatrında ilk tamaşası olmuşdur. "Leyli və Məcnun"la Azərbaycan musiqi mədəniyyəti tarixində yeni bir dövr açılmış, eyni zamanda müsəlman Şərqində opera janrının əsası qoyulmuşdur. Opera XVI əsrin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin eyniadlı poemasının motivləri əsasında yazılmışdır. Librettonun müəllifi Üzeyir Hacıbəylidir. "Leyli və Məcnun" əsəri muğam ilə Avropa operasının üzvi vəhdətindən yaranmış yeni opera janrının – muğam operasının ilk nümunəsidir. Klassik opera formaları ilə yanaşı, geniş istifadə olunan muğamlar operanın əsas musiqi materialı olaraq ənənəvi formaları – ariya, ariozo, reçitativ, vokal ansamblları (duet, trio və s.) əvəz etmişdir. "Leyli və Məcnun"un ilk tamaşasının rejissoru H.Ərəblinski, dirijoru Ə.Haqverdiyev olmuşdur. Rollarda: H.Sarabski (Məcnun), Ə.Fərəcov (Leyli), D.Dağıstani (İbn Salam), M.Kazımovski (Məcnunun anası), Mirzə Muxtar (Məcnunun atası), İ.Qasımov (Leylinin atası), C.Vəzirov (Leylinin anası) çıxış etmişlər. Əsər muğam əsasında yazıldığına görə Şərq tamaşaçıları tərəfindən böyük müvəffəqiyyətlə qarşılanmış və əbədilik qazanmışdır. "Leyli və Məcnun" operasının 100 illiyi YUNESKO səviyyəsində Parisdə, Bazeldə, Dohada nümayiş etdirilmişdir.





## 20 SENTYABR | 19.00

### AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI

## Liyepaya simfonik orkestri (Latviya)
## Azərbaycan Dövlət Xor Kapellası

*Dirijor: Yalçın Adıgözəlov*
*Kapellanın bədii rəhbəri: Gülbacı İmanova*
*Solist: İnarə Babayeva (soprano)*

*Proqram:*
*F.Pulenk "Qloriya"*
*M.Musorqski-M.Ravel "Sərgidən rəsmlər"*



**LİYEPAYA SİMFONİK ORKESTRİ**

Liyepaya Simfonik orkestri 1881-ci ildə təsis edilmişdir. Latviyanın yalnız Liyepaya şəhərində simfonik orkestr mövcuddur. Kollektiv Liyepaya və Riqada müntəzəm olaraq konsert proqramları ilə çıxış edir. Orkestrin baş dirijoru İmant Resnisdir. 2006-cı ildə orkestr musiqi sahəsində Latviyanın yüksək dövlət mükafatına layiq görülmüşdür. 2010-cu ildə Liyepaya Simfonik orkestrinə milli orkestri statusu verilmişdir. Avstriya, İspaniya, İsveç, Polşa, Malayziya, Oman, Litva, Yunanıstan, Estoniya, Çin, Hindistan və s. xarici ölkələrdə konsert proqramları ilə çıxış etmişdir. Odradek Records, Toccata Classics, Wergo və s. məşhur səsyazma şirkətləri ilə əməkdaşlıq etmişdir. Bir çox konsert salonlarında çıxış etmişdir: Riqada "Ziemeļblāzma" Mədəniyyət Sarayı, Latviyada "Gaismas Pils" adlı Milli kitabxana, "Gors" konsert zalı və s.





**YALÇIN ADIGÖZƏLOV**
**(dirijor)**

Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasında (fortepiano), Sankt-Peterburq Dövlət Konservatoriyası və Vyana Musiqi Akademiyasında opera və simfonik dirijorluğu fakültəsində təhsil almışdır. 1989-cu ildən Azərbaycan Dövlət Simfonik orkestrinin dirijoru, 1991-1998-ci illər bədii rəhbər və baş dirijoru vəzifəsində çalışmışdır. 1991-1993-cü illərdə Avstriya hökuməti ilə birlikdə keçirilən "Motsart festivalları"nın bədii rəhbəri olmuşdur. 1998-2000-ci illərdə Rusiya Dövlət Radio və Televiziya Simfonik orkestrinin, 2001-2004-cü illərdə İstanbul Dövlət Operasının dirijoru vəzifəsində çalışmışdır. 2000-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijorudur. 2002-ci ildən Moskva-Helikon Opera Teatrı, 2010-cu ildən Liyepaya Simfonik orkestri ilə əməkdaşlıq edir. ABŞ, Meksika, Braziliya, Cənubi Afrika, İngiltərə, İtaliya, İspaniya, Almaniya, Lüksemburq, Avstriya, Belçika, Rumıniya, Macarıstan, Çin,Türkiyənin aparıcı orkestrləri ilə dünyanın məşhur Barbican Concert hall, London Cadogan Hall, Westminster Central Hall, Arena di Verona, Teatro Municipal do Rio de Janeiro, Berlin Konzerthaus, Linder Auditorium, Kiev, Minsk, Astana, Pekin operaları,
Sankt - Petersburg Philharmonic, Yekaterinburg Philharmonic, Latvian National Simphony, Orchestra Italiana del Cinema, Johannesburg Philharmonic, və b. görkəmli kollektivlərlə əməkdaşlıq edir. P.I.Çaykovski adına Böyük Simfonik orkestri, İstanbul Opera orkestri, Rusiya Televiziya və Radio orkestri, Liyepaya Simfonik orkestri ilə birgə ABŞ, İngiltərə,Rusiya və Latviyada 12 disk yazdırmışdır. Azərbaycan Respublikasının xalq artisti, Prezident mükafatçısı, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və Azərbaycan Milli Konservatoriyasının professorudur.

103401



**GÜLBACI İMANOVA**
**(bədii rəhbər)**

Bakı şəhərində anadan olmuşdur. 1975-ci ildə A.Zeynallı adına Musiqi Kollecini, 1980-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1996-cı ildən Azərbaycan Dövlət Xor Kapellasının bədii rəhbəri və baş dirijorudur. Azərbaycan Respublikasının xalq artisti, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, xor dirijorluğu kafedrasının müdiridir.



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası



**AZƏRBAYCAN DÖVLƏT XOR KAPELLASI**

1926-cı ildə Azərbaycan professional bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli tərəfindən çoxsəsli xor yaradılmışdır. Azərbaycan Dövlət Xor Kapellası 1966-cı ildə Azərbaycan Dövlət Filarmoniyası nəzdində yenidən təşkil edilmişdir. Kapellanın təməlinin qoyulmasında müxtəlif illərdə E.Novruzov, M.Kononenko, Y.Abramis və s. tanınmış xormeysterlərin böyuk rolu olmuşdur. Hazırda kapellanın repertuarına mindən artıq əsər daxildir. Kapellanın musiqiçiləri Azərbaycan mədəniyyətini xaricdə məharətlə təbliğ edərək festivallar, dekadalar, mədəniyyət günlərində iştirak edirlər. Azərbaycan Dövlət Xor Kapellasının ifaçılıq sənəti milli ənənələr arasında formalaşıb və bu gün milli axtarışların yüksək nailiyyətlərini simvolizə edir. 1996-cı ildən Azərbaycan Dövlət Xor Kapellasının bədii rəhbəri və baş dirijoru, Azərbaycan Respublikasının xalq artisti, professor, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının xor dirijorluğu kafedrasının müdiri Gülbacı İmanovadır.



**İNARƏ BABAYEVA**
**(soprano)**

Bakı şəhərində anadan olmuşdur. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasını bitirmişdir. 2002-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistidir. Bir sıra müsabiqə və festivallarda iştirak etmiş, laureat və diplomant adına layiq görülmüşdür: Gənc vokalçıların Respublika müsabiqəsinin laureatı-I yer (1994), Opera ifaçılarının Respublika müsabiqəsi laureatı-II yer (2000), "Türksoy" (Türkiyə) beynəlxalq festivalının iştirakçısı (2002), Vokalçıların Yaltada keçirilən müsabiqəsinin diplomantı (2006), Opera ifaçılarının Tuluza şəhərində (Fransa) keçirilən müsabiqəsinin diplomantı (2008). Yaponiya, Rusiya, Fransa, İngiltərə, Gürcüstan, Qazaxıstan, Malta, Belçika və s. xarici ölkələrdə çıxış etmişdir. Ü.Hacıbəyli Beynəlxalq musiqi festivalının daimi iştirakçısıdır. R.Abdullayev, V.Ponkin, D.Panelli, A.Anixanov kimi dirijorlarla çıxış etmişdir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi, Azərbaycan Respublikasının Əməkdar Artisti, Prezident mükafatçısıdır.



# 20 SENTYABR | 19.00

## AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ TEATRI

## Üzeyir Hacıbəyli "Ər və arvad" ikihissəli musiqili komediya

*Baş dirijor: Nazim Hacıəlibəyov*
*Rollarda: İlham Namiq Kamal, Ələkbər Əliyev, Möylə Mirzəliyev, Afaq Başirqızı, Nahidə Orucova, Gülcahan Salamova, Əkbər Əlizadə, Elxan İsmayılov, Əlimamməd Novruzov, Hüseyn Əlili, Ruslan Mürsəlov, Ağaxan Şərifov, Emma Məlikova, Kamran Əlimov, Roman Krasnov, Oqtay Hacıyev, Məmməd Ağasıyev, İsmayıl İsmayılov.*



**ÜZEYİR HACIBƏYLİ "ƏR VƏ ARVAD"**

"Leyli və Məcnun" operası ilə müsəlman Şərqində professional opera janrının əsasını qoyan dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəyli həm də musiqi və teatr tariximizdə hadisə sayılan operetta, musiqili komediya yaradan nadir istedad sahibi idi. Onun ilk tamaşası 1910-cu ildə Bakıda oynanılan "Ər və arvad" əsəri zamanın fövqündə dayandığından bütün dövrlər üçün aktual sayılmaqda və dönə-dönə səhnələşdirilməkdədir. 115 il əvvəl - hələ Azərbaycan qadınlarına səhnəyə çıxmağa icazə verilməyəndə milli teatrın yaradıcıları kimi sonralar şöhrət zirvəsinə qalxan fədailər - Hüseynqulu Sarabski (Mərcan bəy), Əhməd Ağdamski (Minnət xanım) və onların məsləkdaşları bu operettanı xalqa təqdim etməklə yaşadıqları cəmiyyətin eybəcərliklərini tənqid və islah etməyə çalışmışlar. Həm də əsərin libretto müəllifi olan Üzeyir bəy Hacıbəyli ziyalıları, xalqının gələcəyini düşünən maarifpərvər insanları cəhalətlə mübarizəyə ruhlandırmışdı. XX əsrin əvvəllərində müsəlman dünyasında kişilərin ailə başçısı kimi hər cür hüquqlara malik olduğunu, hərəkət və davranışlarındakı sərbəstliyi və üstünlüyü ön plana çəkən Üzeyir bəy həm musiqinin, həm də sözün qüdrəti ilə nadanlıq və cahillikdən irəli gələn özbaşınalığın qadınlara vurduğu mənəvi zərbəni qabartmağa, ailədə hüquq və azadlığa malik olmayan, ərinin kölgəsi kimi yaşamağa məcbur edilən feodal qanunlarına etirazını bildirmək niyyətində idi. O, Mərcanın və onun kimi məsuliyyətsiz kişilərin ləyaqətsizliyini və cəmiyyət üçün artıq məqbul sayılmayan əməllərini gülə-gülə islah etməyə, Minnət xanım kimi ağıllı və təmkinli xanımların məntiqi davranışlarının, uzaqgörənliyinin isə qələbə ilə başa çatdığını vurğulamağa çalışırdı. Ərinin xəyanətindən xəbərdar olan xanım onu gülünc və çıxılmaz vəziyyətə qoyur ki, bu da dünyada baş verən müsbət dəyişikliklərdən xəbərdar olan bəstəkarın böyük uğuru və öz xalqı qarşısında övladlıq borcu, milli mədəniyyətin inkişafı yolunda bu gün də minnətdarlıq hissi ilə xatırlanan əvəzsiz bir xidmətidir.

Əsər ölkəmizin müxtəlif teatrlarında dəfələrlə tamaşaya qoyulmuş, milyonlarla seyirçinin rəğbətini qazanmış və bu gün də Üzeyir bəyin təkrarsız musiqi incisi kimi öz səhnə ömrünü yaşamaqdadır.

## 21 SENTYABR | 15.00

### Q.QARAYEV ADINA MƏRKƏZİ İNCƏSƏNƏT MƏKTƏBİ

Skripkaçı Mina Yarvi (Estoniya) və pianoçu Mikele Kampanellanın (İtaliya) Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində ustad dərsi



**MİNA YARVİ (ESTONİYA)**
**(violin)**

Tallin şəhərində anadan olmuşdur. Helsinki şəhərində Y.Sibelius adına Musiqi Akademiyasında təhsil almışdır. J.Rahlin, P.Tsukerman, H.Şaham, S.Minz, İ.Qrubert, A.Vinnitski, P.Vernikov, A.Fişer, İ.Voloçin, V.A.Qotmelin ustad dərslərinin iştirakçısı olmuşdur. Kamera musiqisinə çox böyük marağı olduğu üçün Estoniyada "Lihula Muusikapäevad" adlı beynəlxalq musiqi festivalını təşkil etmişdir. 2009-cu ildən solo və kamera çıxışları ilə yanaşı, bir çox orkestrlərdə də çalışır. 2008-2009-cu illərdə Tallin Simfonietta orkestrinin konsertmeysteri olmuşdur. Litva, İspaniya, ABŞ, Belçika, Brüssel və s. xarici ölkələrdə konsert proqramları ilə çıxış etmişdir.



**MİKELE KAMPANELLA (İTALİYA)**
**(piano)**

Neapol şəhərində anadan olmuşdur. Diskoqrafiyasında bir çox yazıları var: Emi (M.Ravel), Philips (F.List, K.Sen-Sans), Fone (F.Şopen), PYE (F.List, P.İ.Çaykovski), Nuova Era (F.List, P.İ.Çaykovski, M.Musorqski, M.Balakirev), Musikstrasse (C.Rossini), P & P (İ.Brams, F.List, D.Skarlatti), Brilliant Classics (F.List). Avropa və ABŞ-ın bir çox orkestrləri ilə çıxış etmişdir: Filadelfiya orkestri, Çikaqo Simfonik orkestri, San-Fransisko Simfonik orkestri. K.Abbado, C.Gelmetti, E.İnbal, Ç.Makkeras, Z.Meta, R.Muti, C.Pretr, T.Şippers, Y.Soudant, K.Tilemann kimi məşhur dirijorların rəhbərliyi altında çıxış etmişdir. Avstraliya, Rusiya, Böyük Britaniya, Argentina, Çində dəfələrlə konsert proqramları ilə çıxış etmişdir. Luserne, Vyana, Berlin, Praqa, Pesaroda beynəlxalq festivalların iştirakçısıdır. Ravelloda hər il ustad dərsləri verir. Santa-Çiçilia Milli Akademiyasının üzvü, Kidji Musiqi Akademiyasının (Siyena) professorudur.



## 21 SENTYABR | 18.00

### AĞCABƏDİ RAYON "QARABAĞ" MUĞAM MƏRKƏZİ

F.Əmirov adına Əməkdar kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı

*Bədii rəhbər və baş dirijor: Ağaverdi Paşayev*
*Proqramda Ü.Hacıbəylinin əsərləri səslənəcək*



**AĞAVERDİ PAŞAYEV**
**(bədii rəhbər)**

1971–1977-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasını tar ifaçısı və xalq çalğı alətləri orkestrinin dirijoru kimi bitirmişdir. 1978-ci ildən Konservatoriyada pedaqoji fəaliyyətə başlamışdır. 2002-ci ildən Azərbaycan Milli Konservatoriyasının dirijorluq kafedrasının professoru və müdiridir. Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru, Azərbaycan Respublikasının xalq artistidir. Onun rəhbərliyi altında kollektiv Türkiyə, Misir, İran, Ərəbistan, Mərakeş, Fransa və başqa ölkələrdə uğurla çıxış etmişdir.



**F.ƏMİROV ADINA ƏMƏKDAR KOLLEKTİV AZƏRBAYCAN DÖVLƏT MAHNI VƏ RƏQS ANSAMBLI**

F.Əmirov adına Əməkdar kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı 1936–cı ildə Azərbaycan klassik musiqisinin banisi Üzeyir Hacıbəyli tərəfindən Azərbaycan Dövlət Filarmoniyasının nəzdində yaradılmışdır. Kollektivdə müxtəlif dövrlərdə işləmiş rəhbərlər Azərbaycan xalq mahnı və rəqslərinin "beşiyi" sayılan Şamaxı, Qazax, Şuşa, Şəkiyə gedərək zəngin materiallar əldə edərək ansamblın repertuarlarını genişləndirmişdilər. Belə ki, bir çox rəqslər - "Mirzəyi", "İnnabı", "Qazaxı", "Şəki", "Yallı", "Uzundərə" və başqaları bu günədək səhnə ömrü yaşayır. Bir çox bəstəkarlar sırf ansambl üçün süitalar bəstələmiş (C.Cahangirov "Bulaq başında", S.Rüstəmov "Azərbaycan") və həmin süitalara xoreoqraflar tərəfindən rəqslər qurulmuşdur. Bir çox sənətkarlar yetişdirmişdir: Əlibaba Abdullayev, Əminə Dilbazi, Tutu Həmidova, Böyükağa Məmmədov, Əlikram Aslanov, Roza Cəlilova, Afaq Məlikova, Cəmilə Bayramova və s. Çin, Hindistan, Suriya, Nepal, Misir, Danimarka, Norveç, Niderland, Belçika, Livan, Avstriya, Anqola, Konqo, İtaliya, İspaniya, Türkiyə, Meksika, Almaniya, Yaponiya, Fransa və s. xarici ölkələrdə çıxış etmiş, müxtəlif beynəlxalq festivallarda qızıl medallarla təltif edilmişdir.
13 iyun 1958–ci ildə əmək fəaliyyətinə görə ansambl respublikanın "Əməkdar kollektivi" adına layiq görülmüşdür. F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı bu gün də Azərbaycan Respublikasının Xalq Artisti, professor Ağaverdi Paşayevin rəhbərliyi ilə parlaq yaradıcılıq həyatını yaşayaraq, tutduğu şərəfli yolu layiqincə davam etdirir.

## 21 SENTYABR | 19.00

## BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ

# Rusiya Akademik Böyük Teatrının Brass-kvinteti

*Üzvləri:*
*Aleksey Kornilyev (truba, flüqelqorn)*
*Yevgeni Quryev (truba)*
*Aleksey Rayev (valtorna)*
*Erkin Yusupov (trombon)*
*Aleksandr Jbanov (tuba)*

*Proqram:*
*M.A.Şerpantye "Te Deum" himninə prelüd*
*J.Myure Rondo*
*H.Hendel "Su üzərində" süita*
*İ.S.Bax Kiçik fuqa*
*İ.S.Bax Orkestr süitasından Ariya №3*
*J.Bize "Karmen" operasından süita*
*İrlandiya melodiyası "The Londonderry Air"*
*R.Mendes Fantastik rəqs*
*Ənənəvi diksilend "Just A Closer Walk"*
*Q.Mançini "Çəhrayı pantera"*
*A.Bıkanov Yol hərəkəti*
*L.Pollak "Bu bolluqdur"*



**RUSİYA AKADEMİK BÖYÜK TEATRININ BRASS-KVİNTETİ**
Rusiya Akademik Böyük Teatrının Brass-kvinteti ötən əsrin 80-ci illərində yaranmışdır. Onun mənşəyində görkəmli truba ifaçısı, teatr orkestrinin solisti Vyaçeslav Prokopov durmuşdur. Müxtəlif dövrlərdə kvintetin tərkibində A.Morozov, D.Provkin, A.Klevtsov, V.Tarasov, Ş.Luftraxmanov, A.Tarasov, A.Kazaçenkov kimi musiqiçilər çıxış etmişdir. Kollektiv həm Rusiya, həm də xarici ölkələrdə konsert proqramları ilə dəfələrlə çıxış etmişdir. Böyük Teatrın Orkestrinin beş solistindən ibarət yenilənmiş ansambl bir çox konsert və festivalların iştirakçısıdır.



## 22 SENTYABR | 12.00

## XƏZƏR UNİVERSİTETİ

# Beynəlxalq müsabiqələr laureatı, skripkaçı Oleq Poxanovskinin (Kanada) ustad dərsi



**OLEQ POXANOVSKİ (KANADA)**
**(violin)**
Debütü 7 yaşında ikən olmuşdur. Kuybış Filarmonik Orkestri ilə birgə A.Vivaldinin konsertini ifa etmişdir. Mərkəzi musiqi məktəbində (Moskva) təhsil aldığı illərdə skripkaçıların H.Venyavski adına (Polşa) Beynəlxalq müsabiqəsinin laureatı olmuşdur. P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında (professor V.A.Klimovun sinfi) təhsil almışdır. Kanadalı violin ifaçısı və pedaqoq Taras Qaboranın rəhbərliyi altında "Solistı Mira" adlı konsert proqramında (ABŞ) iştirak etmək üçün dəvət almışdır. Daha sonra Culyard (Doroti Delayın sinfi) və Manhetten məktəblərinə (Pinxas Tsukermanın sinfi) daxil olmuşdur. Bir çox Beynəlxalq müsabiqələr laureatıdır: skripkaçıların N.Paqanini adına Beynəlxalq müsabiqəsi (İtaliya), skripkaçıların P.Sarasate adına Beynəlxalq müsabiqəsi (İspaniya) və s. Monreal Universitetinin aspirantura pilləsinə daxil olaraq professor dərəcəsinə yiyələnmişdir. Hazırda Manitoba Universitetində (Kanada) dərs deyir.

# 22 SENTYABR | 12.00

## AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQI

"Üzeyir Hacıbəyli-130"
elmi konfrans





# 22 SENTYABR | 14.00

## MUSİQİ MƏDƏNİYYƏTİ DÖVLƏT MUZEYİ

Kamera musiqisi konserti

*Solistlər:*
*Ziba Rəcəbli (violin),*
*Məmməd Rəcəbli (klarnet),*
*Fatimə Cəfərzadə (soprano),*
*Məhərrəm Hüseynli (bariton),*
*İlahə Sadıxzadə (piano),*
*Dilarə Əliyeva (soprano).*

*Proqram:*
*A.Məlikov "Məhəbbət əfsanəsi" baletindən Monoloq, Noktürn*
*A.Məlikov 5 romans (Söz. N.Hikmət)*
*Q.Qarayev "Ya vas lubil", "Na xolmax Qruzii", 3 Noktürn (Söz. L.Xyuz)*
*S.Prokofyev "Romeo və Cülyetta" baletindən Merkutsio*
*G.Sviridov "Payızda"*
*A.Şnitke "Polka"*

**ZİBA RƏCƏBLİ**
**(violin)**

Bakı şəhərində anadan olmuşdur. Bülbül adına orta ixtisas musiqi məktəbini bitirmişdir. 2011-ci ildə "Rodniki duşı" Respublika müsabiqəsinin laureatı olmuşdur (I yer). 2012-ci ildə Türksoy Kamera Orkestrinə dəvət olunmuşdur. 2012-2013-cü illərdə Bakı Musiqi Akademiyasının Kamera Orkestrində çalışmışdır. 2014-ci ildə Türkiyənin Edirne şəhərində keçirilən Beynəlxalq İnstrumental Musiqi müsabiqəsində I yerə layiq görülmüşdür. 2014-cü ildə Gənclər Gününə həsr olunmuş "Gəncliyin səsi" Festivalında diploma layiq görülmüşdür. 2014-cü ildə Ü.Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalında iştirak etmişdir. 2015-ci ildə Vyanada "Caspian Virtuoses", Norvecdə Gənclər Kamera Orkestrinə dəvət olunmuşdur. D.Mendeleyev təqaüdçüsüdür. Hazırda Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının IV kurs tələbəsidir.





**MƏMMƏD RƏCƏBLİ**
**(klarnet)**

Bakı şəhərində anadan olmuşdur. 2011-ci ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasını bitirmişdir. 2006-cı ildə "Rodniki duşı" adlı Respublika Müsabiqəsinin laureatı olmuşdur. 2012-ci ildə "Travelling Notes" Beynəlxalq Gənclər Simfonik Orkestrində I klarnet kimi fəaliyyət göstərmişdir. 2014-cü ildə Ü.Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalında iştirak etmişdir. Prezident təqaüdçüsüdür. Hazırda Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrində çalışır.

**FATİMƏ CƏFƏRZADƏ**
**(soprano)**

Bakı şəhərində anadan olmuşdur. Bülbül adına orta ixtisas musiqi məktəbini bitirmişdir. Heydər Əliyev adına respublika müsabiqəsi laureatı (2008-ci ildə II , 2013-cü ildə I yer), Nazim Əliverdibəyov adına gənc ifaçıların musiqi müsabiqəsinin laureatı (I yer), Bülbül adına müsabiqənin (2010-cu il I ,2012-ci il II yer) və Y.Obraztsova adına II beynəlxalq gənc vokalçılar müsabiqəsinin laureatıdır (2008-ci il). 2015-ci ilin iyun ayında Türkiyənin Ankara şəhərində yaradılan "Türksoy Beynəlxalq Gənclik Kamera Xoru"nun Azərbaycan təmsilçisidir. Bu layihə ilə birgə Almaniyanın Maqdeburq şəhərində keçirilən "Dünya Avropa Xor Oyunları" müsabiqəsində 3 kateqoriya üzrə 3 qızıl medal qazanmışdır. 2015-ci ildə Çexiyanın Praqa şəhərində Heydər Əliyevin ad gününə həsr olunmuş konsertdə Praqa Dövlət Simfonik Orkestri ilə çıxış etmişdir. 2006-cı ildən "ÜNS yaradıcılıq səhnəsi"nin solistidir. Hazırda Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının III kurs tələbəsidir.





**MƏHƏRRƏM HÜSEYNLİ**
**(bariton)**

Bakı şəhərində anadan olmuşdur. L. və M.Rostropoviçlər adına 21 saylı musiqi məktəbi, daha sonra Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil almışdır. Bir sıra müsabiqə və festivallarda iştirak etmişdir. S.Yesenin (Bakı), "Sozvezdiye" (Odessa) müsabiqələrinin laureatı, S.Leyferkus müsabiqəsinin diplomantıdır. 2009-2012-ci illər ərzində M.Rostropoviç Beynəxalq Musiqi Festivallarının iştirakçısı olmuşdur. Q.Vişnevskaya, R.Kabayvanska, L.Kuberli, V.Vivo, J.Silvasti, A.Simoni, A.Vandinin ustad dərslərinin iştirakçısı olmuşdur. Adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na daxil edilmiş, Prezident təqaüdünə layiq görülmüşdür.
Hazırda İtaliyanın Ozimo şəhərində vokal üzrə ixtisaslaşmış Musiqi Akademiyasında təhsilini davam etdirir. Debütu 2015-ci ildə "Teatro La Nuova Fenice"-də J.Bizenin "Karmen" operasında (Morales rolu) olmuşdur.



**İLAHƏ SADIXZADƏ**
**(piano)**

Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. Hazırda Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Solo oxuma və opera hazırlığı kafedrasında və Bakı Musiqi Kollecində baş müəllim vəzifəsində çalışır. Pedaqoji və konsert fəaliyyəti ilə məşğul olur, əsasən konsertmeyster kimi çıxış edir. Qəbələ Beynəlxalq Musiqi Festivallarının iştirakçısıdır. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestrinin artistidir.





**DİLARƏ ƏLİYEVA**
**(soprano)**

Qazaxıstanın Qaraqanda şəhərində anadan olmuşdur. Bakı şəhərində Q.Qarayev adına 8 saylı musiqi məktəbində, daha sonra Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil almışdır. Bir çox tədbir və konsertlərdə çıxış etmişdir, 2012-ci ildə keçirilən Gənclər Gününə həsr edilmiş "Gəncliyin səsi" festivalında iştirak etmişdir. Yorma Silvastinin ustad dərslərinin iştirakçısı olmuşdur.
2015-ci ildə C.Verdinin "La Traviata" operasında - Violetta partiyasını ifa etmişdir.

## 22 SENTYABR | 19.00

### AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI

## "EMMA Avropa və Aralıq Dənizi Musiqi Akademiyasının təqdimatı"
## Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri

*Dirijor: Əyyub Quliyev*
*Solistlər:*
*M.Kampanella (İtaliya) piano*
*K.Azmex (Suriya) klarnet*
*M.Yarvi (Estoniya) violin*

*Proqram:*
*L.V.Bethoven Fortepiano və orkestr üçün 4 saylı konsert*
*K. Azmeh "Toy mərasimi" klarnet və orkestr üçün süita*
*(II və III hissələr) "22 noyabr" "Toy mərasimi" (Bakıda ilk ifa)*
*Q.Qarayev Violin və orkestr üçün konsert*
*P.Tilua 7 saylı simfoniya "Yanardağ"*

EMMA
EURO MEDITERRANEAN MUSIC ACADEMY
FOR PEACE

**"EMMA AVROPA VƏ ARALIQ DƏNİZİ MUSİQİ AKADEMİYASININ TƏQDİMATI"**
Sülh üçün EMMA və ya Avropa Aralıq Dənizi Musiqi Akademiyası musiqi diplomatiyası və təhsili üzrə qeyri-kommersiya qlobal çətir təşkilatıdır: Aralıq Dənizi və Orta Şərq regionlarında ortaq musiqi maraqları və sülhün təbliği ilə bir araya gəlmiş musiqi ali təhsil müəssisələri, universitetlər və xeyriyyəçi fondlar şəbəkəsidir. Milli qurumların və beynəlxalq təşkilatların əməkdaşlığı sayəsində Sülh üçün EMMA dünyaca tanınmış sənətkarların konsertlərdə, ustad dərslərdə, seminarlarda və gənclərin peşəkarlığı üçün təşkil olunmuş digər təlim proqramlarında iştirakı ilə sülh quruculuğu təşəbbüslərini şövqləndirir.
Tanınmış italyan dirijoru Rikkardo Muti təşkilatın fəxri prezidentidir. Sülh üçün EMMA rəsmi olaraq, UNESCO təşkilatının rəhbərliyi altında və Avropa Şurasının Baş Assambleyasının himayəsi ilə Varşavada, Nobel Sülh Laureatlarının 13-cü Dünya Sammitində başladılmışdır. EMMA Orta Şərq və Aralıq Dənizi regionunun tanınmış musiqiçiləri və mədəniyyət xadimlərini gənc istedadlarla Sülh uğrunda musiqili dialoqda bir araya gətirərək, Sammit ərzində bir sıra konsertlər təşkil etmişdir.





**ÜZEYİR HACIBƏYLİ ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİ**
Orkestr 1920-ci ilin iyul ayında təşkil olunmuş, təcrübəli mütəxəssis M.İ.Çernyaxovski orkestrin ilk dirijoru təyin edilmişdir. Ötən əsrin 20-30-cu illərindən Böyük Vətən müharibəsinə qədər orkestrlə O.Klemperer (Almaniya), R.Baton (Fransa), F.Ştidri (Avstriya), Q.Mravinski, N.Qolovanov, A.Qauk, A.Pavlov-Arbenin, S.Stolerman kimi bir sıra dünya şöhrətli dirijorlar çıxış etmişdir.
1938-ci ildə orkestr yenidən təşkil olunur. Bu zaman Ü.Hacıbəylinin təşəbbüsü ilə Moskvadan məşhur mütəxəssis, Moskva Konservatoriyasının professoru N.P.Anosov baş dirijor vəzifəsinə dəvət edilir. 1945-1948-ci illərdə Moskva Konservatoriyasının professoru, L.M.Ginzburq simfonik orkestrin baş dirijoru vəzifəsində çalışmışdır.
1948-ci ildən orkestrə SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Niyazi rəhbərlik etməyə başlayır. Həmin vəzifədə o, qısa fasilələrlə 1984-cü ildən ömrünün sonunadək işləmişdir.
Azərbaycan Dövlət Opera və Balet teatrındakı 16 illik uğurlu fəaliyyətindən sonra, yəni 1984-1990-cı illərdə və 1998-ci ildən Simfonik Orkestrin baş dirijoru vəzifəsinə Respublikanın xalq artisti, Dövlət mükafatı laureatı, professor R.Abdullayev təyin olunur. Həmin vəzifəni bu günə kimi şərəflə yerinə yetirməkdədir.
1992-1998-ci illərdə Yalçın Adıgözəlov orkestrin bədii rəhbəri və baş dirijoru kimi fəaliyyət göstərmişdir.
Orkestr R.Abdullayevin rəhbərlik etdiyi illərdə Q.Qarayev, F.Əmirov, C.Hacıyev, C.Cahangirov, A.Məlikov, F.Qarayev, A.Əlizadə, V.Adıgözəlov, M.Mirzəyev, A.Rzayev, M.Quliyev, A.Dadaşov və bir sıra Azərbaycan bəstəkarlarının əsərlərini ilk dəfə olaraq səsləndirilmişdir.
Almaniya, Türkiyə, İsveçrə, Misir, ABŞ, Fransa, Böyük Britaniya, İtaliya, Birləşmiş Ərəb Əmirlikləri kimi xarici ölkələrdə uğurla çıxış etmişdir.
Orkestr onun təsis etdiyi «XX yüzilliyin musiqisi» və hər il keçirilən Beynəlxalq Rostropoviç Fesivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, 2009 və 2012-ci illərdə Bakı Beynəlxalq Caz Festivalı, Vokalçıların Bülbül adına Beynəlxalq müsabiqəsi, 2009, 2011 və 2013-cü illərdə Beynəlxalq Muğam Festivallarının fəal iştirakçısıdır. 2007-2008-ci illərdə kollektiv İtaliyada keçirilən yay Festivallarında uğurla çıxış etmişdir. 2012-ci il oktyabr ayında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri Fransanın Kolon orkestri ilə birgə Parisin məşhur Salle Pleyel zalında Azərbaycan və Fransa bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış etmişdir.



**ӘYYUB QULİYEV**
**(dirijor)**

Bakı şəhərində anadan olmuş, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasını, N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Dövlət Konservatoriyasının aspiranturasını, Vyana Dövlət Musiqi və İncə Sənətlər Universitetini bitirmişdir. Tanınmış dirijorlar – M.Yurovski, Y.Şlefli, D.Xardinq, R.Kapasso, İ.Simonov, R.Abdullayevin ustad dərslərinin iştirakçısı olmuşdur. Opera dirijoru kimi debütü 2007-ci ildə Sankt-Peterburq Akademik Opera və Balet Teatrında V.A.Motsartın "Fiqaronun toyu" operası olmuşdur. Sankt-Peterburq şəhərində keçirilən "Musiqi Olimpi" XIV Beynəlxalq musiqi festivalının "Dinləyici Simpatiyası" mükafatına layiq görülmüşdür. Dirijorların V.Lütoslavski adına (Polşa) IV Beynəlxalq müsabiqəsində qalib gəlmiş, "Müsabiqənin ən yaxşı dirijoru" adını qazanmış, D.Mitropulos adına dirijorların IX Beynəlxalq müsabiqəsində (Afina) "Orkestrin xüsusi mükafatı", "Krayova" (Rumınıya) Beynəlxalq müsabiqəsində I yerə, A.Toskanini adına dirijorların IX Beynəlxalq müsabiqəsində Qran-Pri və Sinopoli Mükafatına layiq görülmüşdür. 2011-ci ildən Akademik Opera və Balet Teatrında dirijordur. 2013-ci ildə V.Safonov adına Rusiya Dövlət Akademik Filarmonik orkestrinin baş dəvətli dirijoru, 2014-ci ildə isə M.Musorqski adına Sankt-Peterburq Dövlət Akademik Opera və Balet Teatrının dəvətli dirijoru təyin olunmuşdur. Prezident mükafatçısıdır.

**MİKELE KAMPANELLA (İTALİYA)**
**(piano)**

Neapol şəhərində anadan olmuşdur. Diskoqrafiyasında bir çox yazıları var: Emi (M.Ravel), Philips (F.List, K.Sen-Sans), Fone (F.Şopen), PYE (F.List, P.İ.Çaykovski), Nuova Era (F.List, P.İ.Çaykovski, M.Musorqski, M.Balakirev), Musikstrasse (C.Rossini), P & P (I.Brams, F.List, D.Skarlatti), Brilliant Classics (F.List). Avropa və ABŞ-nın bir çox orkestrləri ilə çıxış etmişdir: Filadelfiya orkestri, Çikaqo Simfonik orkestri, San-Fransisko Simfonik orkestri. K.Abbado, C.Gelmetti, E.İnbal, Ç.Makkeras, Z.Meta, R.Muti, C.Pretr, T.Şippers, Y.Soudant, K.Tilemann kimi məşhur dirijorların rəhbərliyi altında çıxış etmişdir. Avstraliya, Rusiya, Böyük Britaniya, Argentina, Çində dəfələrlə konsert proqramları ilə çıxış edir. Luserne, Vyana, Berlin, Praqa, Pesaroda beynəlxalq festivalların iştirakçısıdır. Ravelloda hər il ustad dərsləri verir. Santa-Çiçilia Milli Akademiyasının üzvü, Kidji Musiqi Akademiyasının (Siyena) professorudur.







**KİNAN AZMEX (SURİYA)**
**(klarnet)**

Damask şəhərində anadan olmuşdur. 1997-ci ildə N.Rubinşteyn adına Beynəlxalq müsabiqənin qalibi olmuşdur (Moskva). Nyu-York şəhərində Culyard məktəbini (K.Neidiçin sinfi) bitirmişdir. Dünyanın bir sıra nüfuzlu konsert salonlarında çıxış etmişdir: Carnegie Hall, Alice Tully Hall, Royal Albert hall, Teatro Colon, Kennedy Center, Mozarteum, P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının Böyük Zalı, Damask Opera Teatrı və s. Solist kimi bir çox orkestrlərlə çıxış etmişdir: Kiyev Kamerata orkestri, İzmir Dövlət Opera orkestri, Qatar Simfonik orkestri, Nyu-York Culyard ansamblı, Suriya Simfonik orkestri və s. Yo-Yo Ma Silk Road amsamblının üzvü, Dəməşqdə Kamera musiqisi ansamblı festivalının bədii rəhbəridir.

**MİNA YARVİ (ESTONİYA)**
**(violin)**

Tallin şəhərində anadan olmuşdur. Helsinki şəhərində Y.Sibelius adına Musiqi Akademiyasında təhsil almışdır. J.Rahlin, P.Tsukerman, H.Şaham, S.Minz, İ.Qrubert, A.Vinnitski, P.Vernikov, A.Fişer, İ.Voloçin, V.A.Qotmelin ustad dərslərinin iştirakçısı olmuşdur. Kamera musiqisinə çox böyük marağı olduğu üçün Estoniyada "Lihula Muusikapäevad" adlı beynəlxalq musiqi festivalını təşkil etmişdir. 2009-cu ildən solo və kamera çıxışları ilə yanaşı, bir çox orkestrlərdə də çalışır. 2008-2009-cu illərdə Tallin Simfonietta orkestrinin konsertmeysteri olmuşdur. Litva, İspaniya, ABŞ, Belçika, Brüssel və s. xarici ölkələrdə konsert proqramları ilə çıxış etmişdir.



## 23 SENTYABR | 12.00

### AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQI

"Müslüm Maqomayev-130"
elmi konfrans





## 23 SENTYABR | 18.00

### KAMERA VƏ ORQAN MUSİQİSİ ZALI

## Kamera musiqisi konserti

*Beynəlxalq müsabiqələr laureatı*
*Oleq Poxanovski (Kanada) violin*
*Zülfiyyə Sadıxova (piano)*

*Proqram:*
*İ.Brams-Y.İoaxim Macar rəqsləri №5*
*Q.Qarayev Vals*
*A.Piazzolla Brown and blue*
*A.Piazzolla Adios Nonino*
*Y.Sibelius Qəmli vals*
*G.Sviridov Vals*
*P.İ.Çaykovski Kansonetta*
*A.Batsini Qnomların rəqsi*
*P.Sarasate İntroduksiya və tarantella*
*A.Məlikov Noktürn*
*F.Kreysler Sevgi sevinci*
*M.Orinski Polonez*
*V.Monti Çardaş*
*U.Kroll Banjo və violin*
*M.Moşkovski Gitara*
*İ.Brams Sozertsanie*
*A.Bəbirov Prelüd*
*C.Hacıyev Ballada*
*F.List Konsert etüdu f-moll*
*F.Şopen Noktürn*
*K.Debüssi "Məhəbbət adası"*

**OLEQ POXANOVSKİ (KANADA)**
**(violin)**

Debütu 7 yaşında ikən olmuşdur. Kuybış Filarmonik Orkestri ilə birgə A.Vivaldinin konsertini ifa etmişdir. Mərkəzi musiqi məktəbində (Moskva) təhsil aldığı illərdə skripkaçıların H.Venyavski adına (Polşa) Beynəlxalq müsabiqəsinin laureatı olmuşdur. P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında (professor V.A.Klimovun sinfi) təhsil almışdır. Kanadalı violin ifaçısı və pedaqoq Taras Qaboranın rəhbərliyi altında "Solisti Mira" adlı konsert proqramında (ABŞ) iştirak etmək üçün dəvət almışdır. Daha sonra Culyard (Doroti Delayın sinfi) və Manhetten məktəblərinə (Pinxas Tsukermanın sinfi) daxil olmuşdur. Bir çox Beynəlxalq müsabiqələr laureatıdır: skripkaçıların N.Paqanini adına Beynəlxalq müsabiqəsi (İtaliya), skripkaçıların P.Sarasate adına Beynəlxalq müsabiqəsi (İspaniya) və s. Monreal Universitetinin aspirantura pilləsinə daxil olaraq professor dərəcəsinə yiyələnmişdir. Hazırda Manitoba Universitetində (Kanada) dərs deyir.





**ZÜLFİYYƏ SADIXOVA**
**(piano)**

Bakı şəhərində anadan olmuşdur. Bülbül adına orta ixtisas musiqi məktəbini, daha sonra Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasını fərqlənmə diplomu ilə bitirmişdir. Məktəb illərindən bugünədək bir çox beynəlxalq festivalların xüsusi diplomlarına layiq görülmüş, fəaliyyət və ifasına görə Heydər Əliyev Fondu tərəfindən Fəxri Fərmanla təltif olunmuşdur. İngiltərə, Norveç, İtaliya,Fransa, Türkiyə, İran, Rusiya, Dağıstan, Qazaxıstan, Qırğızıstan, Gürcüstanda solo konsertlərlə çıxış etmişdir. Hazırda Xəzər Universitetinin dosenti , "Musiqi və İncəsənət" kafedrasının müdiridir.

## 23 SENTYABR | 19.00

### AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI

## C.Puççini "Manon Lesko" operasının konsert ifası (premyera)

*Dirijor: Cavanşir Cəfərov*




**C.PUÇÇİNİ "MANON LESKO" OPERASI**
Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı hər il Ü.Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində öz tamaşaçılarına dünya şöhrətli klassik bəstəkarların yeni bir tamaşasını təqdim edir. Bu il də ənənəsinə sadiq qalaraq teatr Ü.Hacıbəyli VII Beynəlxalq Musiqi Festivalı çərçivəsində sentyabrın 23-də Cakomo Puççininin "Manon Lesko" operasını səhnəyə qoyacaqdır. Tamaşa konsert ifasında səslənəcəkdir. "Manon Lesko" Puççini yaradıcılığının ən parlaq nümunələrindən biridir. Opera ilk dəfə 1 fevral 1893-cü ildə Turində (İtaliya) səhnəyə qoyulmuşdur. Operanın librettosunu Avropada çox populyar olan Antuan Fransua Prevonun "Kavaler de Qrie və Manon Leskonun məhəbbət tarixçəsi" kitabının motivləri təşkil edir. Dünya opera sənətinin incilərindən sayılan "Manon Lesko" operası hazırda dünyanın bir çox aparıcı teatrlarının repertuarını bəzəyir.
Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşanın premyerasında Azərbaycanın Əməkdar Artisti Afaq Abbasova (Manon Lesko), Xalq Artisti Samir Cəfərov (Kavaler de Qrie), Əməkdar Artist Əkrəm Poladov (Qeront), həmçinin solistlər Anton Ferştandt (Lesko), Əliəhməd İbrahimov (Edmondo) və Ataş Qarayev (Fənərçi) çıxış edəcəklər.
Tamaşanın musiqi rəhbəri və dirijoru Azərbaycanın Xalq Artisti, professor Cavanşir Cəfərov, xormeysteri Əməkdar İncəsənət Xadimi Sevil Hacıyeva, konsertmeysterlər Vəfa Əzizova və Roza Səlimovadır.



## 23 SENTYABR | 19.00

### AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI

## Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri

*Proqram:*
*Ü.Hacıbəyli "Arazbarı"*
*M.Mirzəyev "Böyük ustada ithaf"*
*B.Kıdırbek "Türk Akademik musiqisinin banisi" (Əsər Ü.Hacıbəylinin 130-illiyinə həsr olunmuşdur)*
*A.Vivaldi Concerto grosso g moll*
*A.Vivaldi Gitara və orkestr üçün konsert A dur*
*A.Vivaldi Gitara və orkestr üçün konsert D dur*
*R.Dens Tanqo en Skai*
*H.Şensoy "Yol yorqunu"*
*A.Piazzolla Tanqo "Rio sena"*
*E.Alesio Tanqo "Cantemos corazon"*
*J.Gade Tanqo "Jalousie"*
*A.Durdağ "Deryada Deryaliklar"*



**Q.QARAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT KAMERA ORKESTRİ**
Orkestr 1964-cü ildə Azərbaycan musiqisinin klassikləri – Qara Qarayev və Fikrət Əmirovun təşəbbüsü ilə yaradılıb. Orkestrin ilk baş dirijoru və bədii rəhbəri respublikanın xalq artisti, Dövlət mükafatları laureatı Nazim Rzayev olmuşdur. Kollektiv 40 ildən artıq davam edən fəaliyyəti zamanı dünyanın bir çox məşhur səhnələrində, nüfuzlu beynəlxalq festivallarda iştirak edib. Kollektiv müxtəlif illərdə Böyük Britaniya, Almaniya, İsveçrə, Fransa, Türkiyə, Rusiya və başqa ölkələrdə Azərbaycan musiqi sənətini layaqətlə təmsil etmişdir. Orkestrin repertuarına Qərbi Avropa, rus və Azərbaycan bəstəkarlarının əsərləri daxildir. 1998-ci ildən Kamera Orkestrinin bədii rəhbəri və baş dirijoru Azərbaycan Respublikasının Xalq Artisti Teymur Göyçayevdir.



**HAKAN ŞENSOY (TÜRKİYƏ)**
**(dirijor)**
İstanbul şəhərində anadan olmuşdur. (İTİ) Türk Musiqisi Dövlət Konservatoriyasında (Profesor Ayhan Turanın sinfi) təhsil almışdır. İtaliya, Avstraliya, Sinqapur, Portuqaliya, Fransa, Bolqarıstan, ABŞ, Rumıniya, Latviya, Azərbaycan, Estoniya, Hollandiya, İsveçrə, Finlandiya, İsveç, İngiltərə, Venesuela, Meksika, Albaniya, Makedoniya, Yunanıstanda konsert proqramları ilə cıxış etmişdir. 1988-ci ildə London Kral Musiqi Kollecinə (Trevor Villiyamsın sinfi) daxil olmuşdur. 1992-ci ildə Beynəlxalq Rovere D'Oro müsabiqəsində IV yerə layiq görülmüşdür (İtaliya). Beynəlxalq K.Kolumb Festivalı, CRR Konsert Salonu Gənc Solistlər Festivalı, Brasov Beynəlxalq musiqi Festivalı, "Falsterbonasets" Beynəlxalq Yaz Festivalı, İsveç Karlskrona Beynəlxalq Musiqi Festivallarında dəfələrlə iştirak etmişdir. Ş.Minz, R.Valfiş, F.Say, S.İsserlis, C.Aşkın, T.Papavrami, P.Yablonski kimi musiqiçilərlə, həmçinin Terence Blanched Band, Bee Gees Band, Dreamtone & Iris Mavraki kimi qruplarla çıxış etmişdir. 2002-ci ildə İTİ Sosial Elmlər İnstitutunun doktorantura pilləsini bitirmişdir. 2014-2015-ci illərdə Azərbaycan, İtaliya, Meksika, Braziliya, ABŞ, Fransa, Almaniya və s. xarici ölkələrə çıxış etmək üçün dəvət almışdır. İTİ Türk Musiqisi Dövlət Konservatoriyasının dosentidir.



**SİNAN ERŞAHİN (TÜRKİYƏ)**
**(gitara)**
1986-cı ildə Hacettepe Ankara Dövlət Konservatoriyasına (Ahmet Kannecinin sinfi) daxil olmuşdur. Daha sonra Praqa Musiqi Akademiyası (Milan Zelenkanın sinfi) və İstanbul Dövlət Konservatoriyasında təhsilini davam etdirmişdir. J.Kardoso, J.Falu, Moyano, M.A.Çerubito, K.Domenikoni, F.Ortiz, V.Monge, M.Socias, H.Teraşimanın ustad dərslərinin iştirakçısı olmuşdur. 2015-ci ildə "The Roger Shapiro Fund For New Music" və "Marsyas Productions" ilə bağladığı müqaviləyə əsasən Nyu-York şəhərində yeni bəstələdiyi əsərlərindən ibarət konsert proqramı ilə çıxış etmişdir. Bir çox festivallarda iştirak etmiş və ustad dərsləri vermişdir: Meksika-Morelia Gitara Festivalı, İtalya-İmperia Gitara Festivalı, İzmir-Karaburun Gitara Festivalı, Ankara-Bilkent Gitara Günləri. İzmir Dövlət Simfonik Orkestri, İstanbul Filarmonik Orkestri, Bursa Bölgə Dövlət Simfonik Orkestri, Eskişəhər Bələdiyə Simfonik Orkestri ilə çıxış etmişdir. Hazırda İstanbul Dövlət Konservatoriyasının dosentidir.



# 23 SENTYABR | 19.00

## BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ

## Fortepiano musiqisi gecəsi

*Proqram:*
*Q.Qarayev 3 pyes*
*S.Raxmaninov 3 etüd-şəkil №1 c-moll, №5 Es-dur, №8 d-moll op.39*
*E.Tubin Sonata "Şimal şəfəqi"*
*I Rubato e agitato*
*II Andante.*
*III Allegro*

*A.Skryabin Sonata №3*
*I Drammatico*
*II Allegretto*
*II Andante*
*III Andante*
*IV Presto con fuoco*

*E.Qriq 6 Lirik pyes, op.65*



**TANEL JOAMETS (ESTONİYA)**
**(piano)**
Estoniya Musiqi Akademiyasını bitirmişdir (V.Rootsanın sinfi). Daha sonra isə Londonda təcrübə keçmişdir. Estoniyada E.Qrir adına müsabiqənin qalibi, (1993-1994-cü illər), A.Skryabin adına I Beynəlxalq müsabiqənin diplomantı (1995-ci il, Nijni Novqorod), A.Skryabin adına II Beynəlxalq müsabiqənin laureatıdır (2000-ci il, Moskva). 2010-cu ildə "İlin estoniyalı ifaçısı" təqaüdünə layiq görülmüşdür. İngiltərə, Almaniya, Finlandiya, İsveçrə, Hollandiya, Avstraliya, Kanada, Qazaxıstan və s. xarici ölkələrdə konsert proqramları ilə çıxış etmişdir. Hazırda Estoniya Musiqi Akademiyasında dərs deyir.

## 24 SENTYABR | 19.00

## BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ

# "Bülbülsayağı" adlı musiqi layihəsi

*Proqramda Xalq mahnıları, təsniflər və Ü.Hacıbəylinin romansları səslənəcək*

**"BÜLBÜLSAYAĞI" ADLI MUSİQİ LAYİHƏSİ**
Bu konsert ilk dəfə olaraq 2015-ci il may ayının 15-də tamaşaçı auditoriyasına təqdim olunmuşdur.Layihənin rəhbəri Azərbaycan Respublikasının xalq artisti, professor Siyavuş Kərimidir. Konsert "Bülbülsayağı"adlanır. Azərbaycan milli vokal sənətinin dərin köklərə dayanan ənənələri var. Bu ənənələr öz gücünü muğam sənətindən, onun zəngin lad və melizm xüsusiyyətlərindən alır. Məqsəd - bu xüsusiyyətlərdən bəhrələnən milli vokal janrına marağın artırılması, bu janrın yaradıcısı, təbliğatçısı və əvəzolunmaz ifaçısı Bülbülü bir daha yad etmək, onun sənətini, gördüyü böyük işləri Azərbaycan tamaşaçısına çatdırmaqdır. Azərbaycan milli vokal sənətinin elmi-praktiki inkişafı bu məktəbin banisi Bülbülün adıyla bağlıdır. Bu konsertin özəlliyi ondan ibarətdir ki, ifa olunan təsniflər, xalq mahnıları forma və xüsusiyyətini dəyişmədən, məhz Bülbül məktəbinin ənənələrinə əsaslanan texnika ilə ifa olunur.





**ANAR ŞUŞALI**
**(tenor)**
1978-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının solo oxuma fakültəsində təhsil almışdır. Bir çox xarici ölkələrdə - Yaponiya, Fransa, Türkiyə, Rusiya, İran, Ukrayna, Pakistan, Misir, Türkmənistan, Tacikistan, Qırğızıstan, Küveyt, İtaliya, Çin və Almaniyada Azərbaycan mədəniyyətini uğurla təmsil etmişdir. 2013-cü ildə Azərbaycan musiqi mədəniyyətində əldə etdiyi nailiyyətə görə "HUMAY" Milli Mükafatı ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Əməkdar Artisti, Prezident mükafatçısıdır.



## 24 SENTYABR | 19.00

## AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI

# "Z.PALİAŞVİLİ ADINA TBİLİSİ DÖVLƏT OPERA VƏ BALET TEATRININ KAMERA ORKESTRİ"

*Dirijor: Fəxrəddin Kərimov*

*Proqram:*
*D.Şostakoviç Kamera simfoniyası op.110*
*M.Bruh "Mələyin səsi" op.10*
*N.Paqanini C.Rossininin "Moisey Misirdə" operasının mövzusuna variasiyalar*
*J.Suk Serenada*



**"Z.PALİAŞVİLİ ADINA TBİLİSİ DÖVLƏT OPERA VƏ BALET TEATRININ KAMERA ORKESTRİ"**
Tbilisi Dövlət Opera və Balet Teatrı 1851-ci ildə təsis edilmişdir. Məşhur dirijor və violin ifaçısı, maestro Barbyerinin rəhbərliyi altında ilk peşəkar orkestr 12 avropa operasından ibarət konsert proqramı ilə çıxış etmişdir. Orkestr bir çox dünya şöhrətli musiqiçilərlə çıxış etmişdir: C.Streponi, F.Şalyapin, A.Rubinşteyn, S.Raxmaninov, P.I.Çaykovski. 1937-ci ildən Tbilisi Dövlət Opera və Balet Teatrı məşhur gürcü bəstəkarı Z.Paliaşvilinin adını daşıyır. 20-ci əsrdə orkestrə Yevgeni Mikeladze, Odissey Dimitriadi, Givi Azmayparaşvili, Cansuq Kaxidze kimi tanınmış dirijorlar rəhbərlik etmişdir. Hazırda teatr P.Dominqo, F.Furlanetto, X.Karreras, M.Crider, D.Zajik, M.Kabalye, B.Maysuradze, L.Ataneli, T.Alibeqaşvili, N.Maçaidze, N.Surquladze, E.Lamoris, A.Korsantia, D.Toradze, E.Bolkvadze kimi musiqiçilərlə əməkdaşlıq edir. Tbilisi Dövlət Opera və Balet Teatrı bir çox dirijorlarla işləyir: A.Volmer, D.Ettinger, Ş.Okatsu, Y.Kona, S.Qoetzel, F.Mann, D.Yurovski. Macarıstan, Almaniya, Fransa, İsrail, Çin, Livan, Ukrayna, Malta, İspaniya, ABŞ, İngiltərə, Yaponiya, Misir, Rusiya, Estoniya və s. xarici ölkələrdə çıxış etmişdir. 2014-cü ilin may ayında Tbilisi Dövlət Opera və Balet Teatrının bədii rəhbəri David Kintsuraşvili təyin edilmişdir. Tbilisi Dövlət Opera və Balet Teatrının Kamera Orkestrinin kollektivi dünya şöhrətli, yüksək ixtisaslı musiqiçilərdən ibarətdir, bir çoxları isə beynəlxalq müsabiqələr laureatı və Tbilisi Dövlət Konservatoriyasının professorlarıdır.
Hazırda Tbilisi Dövlət Opera və Balet Teatrı təmir olunur, təntənəli açılışı isə 2015-ci il oktyabrın 10-na planlaşdırılıb.



**FƏXRƏDDİN KƏRİMOV**
**(dirijor)**
Bakı şəhərində anadan olmuşdur.
1978-ci ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasını (violin), 1988-ci ildə N.A.Rimski-Korsakov adına Leninqrad (opera və simfonik orkestr dirijoru) Dövlət Konservatoriyasını bitirmişdir. 1989-1991-ci illərdə Mariinski Akademik Opera və Balet Teatrında dirijor kimi (bədii rəhbər: V.Gergiyev) təcrübə keçmişdir. 1991-2004-cü illərdə Türkiyədə işləmiş, Rusiya, Belarus, Gürcüstan, Polşa, Rumıniya, Türkiyə, Almaniya, Özbəkistan, Yaponiya, Hollandiya, Fransa, İsveçrədə opera və balet tamaşaları, simfonik konsertləri idarə etmişdir. 1991-ci ildən 2004-cü ilədək Türkiyədə - İstanbul Böyükşəhər Bələdiyəsi Opera və Simfonik orkestrinin baş dirijoru, İzmir Dövlət Opera və Balet teatrının baş dirijoru, İstanbul MSÜ Dövlət Konservatoriyasının Simfonik orkestrinin dirijoru olmuşdur. 2004-cü ildən Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professorudur. Bakı Musiqi Akademiyasının nəzdində Ş.Məmmədova adına Opera studiyasının bədii rəhbəri və baş dirijorudur.
Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Prezident mükafatçısıdır.



# 25 SENTYABR | 12.00

## AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQI

"Üzeyir Hacıbəyli və Müslüm Maqomayev-130"
Kamera konserti





# 25 SENTYABR | 17.00

## Ü.HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI

### "Fortepiano dueti" konsert
Nəzakət Rimazi, Elnarə Kəbirlinskaya

*Proqram:*
*K.Qustavino Romanslar*
*A.Piazzolla Le Grand Tango, Adios Nonino, Fuga Y Misterio*
*D.Brubek Points on Jazz (Azərbaycanda ilk dəfə ifa)*
*A.Sfasman J.Qerşvinin "Sevgilim"mahnısının mövzusuna fantaziya*
*F.Əmirov "Min bir gecə" baletindən fraqmentlər*

**NƏZAKƏT RİMAZİ**
**(piano)**
Bakı şəhərində anadan olmuşdur. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. Pianoçuların II Respublika və orqan ifaçılarının I Respublika müsabiqəsinin laureatıdır. 1989 - 1990-cı illərdə Tallin şəhərində görkəmli alman musiqiçiləri Hans Qebxard, Leo Kremerin və ispan orqan ifaçısı Lui Qonsales Uriolun başçılığı ilə keçirilən Beynəlxalq seminarlarda iştirak etmişdir. 1992-ci və 1997-ci illərdə İspaniyanın Daroka şəhərində qədim musiqiyə həsr olunmuş festival və seminarların iştirakçısı olmuşdur.
Bakı Musiqi Akademiyasının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktorudur.
Azərbaycan Respublikasının Əməkdar müəllimidir. Pedaqoji və ifaçılıq fəaliyyəti ilə məşğuldur, konsertlərdə solo və ansamblda çıxış edir.
Elnarə Kəberlinskaya və Nəzakət Rimazidən ibarət fortepiano dueti respublikada və xaricdə keçirilən beynəlxalq müsabiqə və festivalların iştirakçısıdır. İtaliyada keçirilən Pyetro Arcento adına XVI Beynəlxalq müsabiqənin laureatıdırlar.





**ELNARƏ KƏBİRLİNSKAYA**
**(piano)**
Bakı şəhərində anadan olmuşdur. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. 1994-1995-ci illərdə İsveçrənin Lozanna Konservatoriyasında pianoçu-virtouzlar kursunda iştirak etmiş, laureatı olaraq mükafat qazanmışdır. Tanınmış pianoçu-pedaqoqlar A.Aleksandrov (Moskva), E.Eylin, V.Marqulis (Sürix, İsveçrə), J.Kristanson (Cenevrə, İsveçrə), A.Bauni (Berlin, Almaniya) kimi professorların beynəlxalq ustad dərslərində iştirak etmişdir. Müxtəlif ölkələrdə (Azərbaycan, Rusiya, Latviya, Fransa, İsveçrədə) konsert proqramları ilə çıxış edir. İtaliyada keçirilən P.Arcento adına XVI Beynəlxalq müsabiqənin laureatıdır. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktorudur. Pedaqoji və ifaçılıq fəaliyyəti ilə məşğuldur, konsertlərdə solo və ansamblda çıxış edir.



# 25 SENTYABR | 19.00

## AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI

### Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri "BAKU CANTA NAPOLİ" adlı konsert

*Proqram:*
*C.Verdi "Traviata" operasından prelüd*
*F.Festa "İtalyan üslubunda Uvertüra"*
*G.Donisetti-R.Pyaçentini Dörd neapolitan mahnısı*
*G.Mirzəyeva TRA DUE MARI*
*E.de Kurtis "Sorentoya qayıt"*
*G.M.Ferilli "Un amore cosigrande"*
*E.de Kurtis "Non ti scordar di me"*
*F.Maggio "O MARE `E NAPULE"*
*F.P.Tosti Neapolitan mahnısı "A Vucchella"*
*G.Deraco Neapolitan xalq havaları əsasında simfonik Fantaziya*
*S.Biksio "Mamma"*
*E.Cannio "O surdato 'nnammurato"*
*L.Denza "Funiculi funicula"*
*E.di Kapua "O, Sole mio!"*
*G.Rossini "La gazza ladra" operasına Uvertüra*



**FABRİSİO FESTA (İTALİYA)**
**(dirijor)**
Çox erkən yaşlarından caz musiqisinə maraq göstərməyə başlamışdır. İtalyan caz musiqiçiləri Enriko Pieranunzi, Franko D'Andrea, Cankarlo Qazzani və bəstəkar, piano ifaçısı Mal Valdron kimi müəllimlərdən dərs almışdır. Özünün "Festa" adlı caz qrupu ilə İtaliya və Avropada konsert proqramları ilə çıxış etmişdir, İsveçrədə keçirilən Montrö Beynəlxalq Caz Festivalında iki dəfə iştirak etmişdir. 2000-ci ildə bu qrup böyük müvəffəqiyyətlə ABŞ-da debüt etmişdir. C.B.Martini adına Bolonya Musiqi Akademiyasında təhsil almışdır. Dirijor kimi debütü 1998-ci ildə olmuşdur. Onun əsərləri İtaliya, ABŞ (Nyu-York, San-Fransisko, Çikaqo, Filadelfiya, Vaşinqton və s.), Almaniya, Rusiya, Hollandiya, Fransa, İsveç, Livan, Türkiyə, Azərbaycan və s. ölkələrdə ifa olunmuşdur. Bolonya şəhərində keçirilən "2 Agosto" adlı bəstəkarların beynəlxalq müsabiqəsinin bədii rəhbəridir. Bolonya şəhərində Opera Thetare müasir musiqi proqramının bədii məsləhətçisidir. Hazırda Musiqi Tənqidçiləri Milli Assosiasiyasının üzvüdür, C.B.Martini adına Bolonya Musiqi Akademiyasında dərs deyir.



## ÜZEYİR HACIBƏYLİ ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİ

Orkestr 1920-ci ilin iyul ayında təşkil olunmuş, təcrübəli mütəxəssis M.İ.Çernyaxovski orkestrin ilk dirijoru təyin edilmişdir. Ötən əsrin 20-30-cu illərindən Böyük Vətən müharibəsinə qədər orkestrlə O.Klemperer (Almaniya), R.Baton (Fransa), F.Ştidri (Avstriya), Q.Mravinski, N.Qolovanov, A.Qauk, A.Pavlov–Arbenin, S.Stolerman kimi bir sıra dünya şöhrətli dirijorlar çıxış etmişdir.

1938-ci ildə orkestr yenidən təşkil olunur. Bu zaman Ü.Hacıbəylinin təşəbbüsü ilə Moskvadan məşhur mütəxəssis, Moskva Konservatoriyasının professoru N.P.Anosov baş dirijor vəzifəsinə dəvət edilir. 1945-1948-ci illərdə Moskva Konservatoriyasının professoru, L.M.Ginzburq simfonik orkestrin baş dirijoru vəzifəsində çalışmışdır.

1948-ci ildən orkestrə SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Niyazi rəhbərlik etməyə başlayır. Həmin vəzifədə o, qısa fasilələrlə 1984-cü ildən ömrünün sonunadək işləmişdir.

Azərbaycan Dövlət Opera və Balet teatrındakı 16 illik uğurlu fəaliyyətindən sonra, yəni 1984-1990-cı illərdə və 1998-ci ildən Simfonik Orkestrin baş dirijoru vəzifəsinə Respublikanın xalq artisti, Dövlət mükafatı laureatı, professor R.Abdullayev təyin olunur. Həmin vəzifəni bu günə kimi şərəflə yerinə yetirməkdədir.

1992-1998-ci illərdə Yalçın Adıgözəlov orkestrin bədii rəhbəri və baş dirijoru kimi fəaliyyət göstərmişdir.

Orkestr R.Abdullayevin rəhbərlik etdiyi illərdə Q.Qarayev, F.Əmirov, C.Hacıyev, C.Cahangirov, A.Məlikov, F.Qarayev, A.Əlizadə, V.Adıgözəlov, M.Mirzəyev, A.Rzayev, M.Quliyev, A.Dadaşov və bir sıra Azərbaycan bəstəkarlarının əsərlərini ilk dəfə olaraq səsləndirmişdir.

Almaniya, Türkiyə, İsveçrə, Misir, ABŞ, Fransa, Böyük Britaniya, İtaliya, Birləşmiş Ərəb Əmirlikləri kimi xarici ölkələrdə uğurla çıxış etmişdir.

Orkestr onun təsis etdiyi «XX yüzilliyin musiqisi» və hər il keçirilən Beynəlxalq Rostropoviç Fesivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, 2009 və 2012-ci illərdə Bakı Beynəlxalq Caz Festivalı, Vokalçıların Bülbül adına Beynəlxalq müsabiqəsi, 2009, 2011 və 2013-cü illərdə Beynəlxalq Muğam Festivallarının fəal iştirakçısıdır. 2007-2008-ci illərdə kollektiv İtaliyada keçirilən yay Festivallarında uğurla çıxış etmişdir. 2012-ci il oktyabr ayında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri Fransanın Kolon orkestri ilə birgə Parisin məşhur Salle Pleyel zalında Azərbaycan və Fransa bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış etmişdir.



## RİKKARDO PYAÇENTİNİ (piano) İTALİYA
## TİSİANİ SKANDALETTİ (soprano) İTALİYA

Alterno dueti - vokalçı Tisiani Skandaletti (soprano) və bəstəkar, piano ifaçısı Rikkardo Pyaçentinidən ibarətdir. Debütları 1997-ci ildə Vankuverada İtalyan müasir musiqi festivalında olmuşdur. O vaxtdan etibarən məşhur İtalyan festivallarında iştirak edirlər. 40-dan çox xarici ölkələrdə konsert proqramları ilə çıxış etmişdirlər - Avropa, Şimali Amerika, Cənubi Amerika, Asiya və Avstraliya daxil olmaqla. Son illər ərzində Berklidə Kaliforniya Universiteti, Stanford Universiteti, Lincoln Performance Hall Portland, Sinxay Konsert Zalında, Ulan-Batorda Opera Teatrı, Albukerkedə Nyu-Meksiko Universiteti, Torontoda SoundaXis Festivalı, Roveretoda V.A.Mosart Festivalı, Sidney Konservatoriyası, P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyası, Riqa və Kiyevdə T.Şevçenko adına Universitet, Romada Nuova Consonanza Festivalı, U.Disney konsert zalında uğurla çıxış etmişdirlər.





## SAMİR CƏFƏROV
**(tenor)**

1976-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini teatr və kino sənəti ixtisası üzrə bitirmişdir. Daha sonra Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında və Moskva şəhərində "Qalina Vişnevskayanın Opera Mərkəzi"ndə təhsil almışdır. 2001-ci ildə Almatı şəhərində keçirilən Vokalçıların Beynəlxalq Müsabiqəsinin laureatı olmuşdur. Hazırda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistidir. Azərbaycan Milli Konservatoriyasında müəllim vəzifəsində çalışır. Azərbaycan Respublikasının xalq artistidir.

## 26 SENTYABR | 19.00

### AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI

### Üzeyir Hacıbəyli "Arşın mal alan" musiqili komediya

| | | |
|---|---|---|
| Baş rolların ifaçıları: | Əsgər | **Azər Zeynalov**<br>*Xalq Artisti* |
| | Gülçöhrə | **İnarə Babayeva**<br>*Əməkdar Artist* |
| Yaradıcı heyət: | Tamaşanın dirijoru | **Sevil Hacıyeva**<br>*Əməkdar İncəsənət Xadimi* |
| | Quruluşçu rejissor | **Hafiz Quliyev**<br>*Əməkdar İncəsənət Xadimi* |
| | Quruluşçu rəssam | **Əyyub Fətəliyev**<br>*Əməkdar İncəsənət Xadimi* |





**Ü.HACIBƏYLİ "ARŞIN MAL ALAN" MUSİQİLİ KOMEDİYA**

Ü.Hacıbəyli "Arşın mal alan" əsərini 1913-cü ildə yazmışdır, əsərin tamaşası 1913-cü il oktyabrın 25-də Hacı Zeynalabdin Tağıyev Teatrının səhnəsində Hüseyn Ərəblinskinin rejissorluğu ilə göstərilmişdir. O həm də librettonun müəllifidir. "Arşın mal alan" 1938-ci ildə Moskvada Azərbaycan incəsənəti dekadası zamanı böyük uğurla göstərilmişdir. Əsərin librettosu onlarla dilə – ingilis, rus, fransız, alman, polyak, ərəb, fars, gürcü, bolqar, çin, ukrayna, belorus və s. tərcümə olunmuşdur. "Arşın mal alan" dünyanın bir sıra ölkələrində – ABŞ, Fransa, İngiltərə, Almaniya, Türkiyə, İran, Misir, Polşa, Çin, Bolqarıstan, Rusiya və s. ölkələrdə səhnəyə qoyulmuşdur. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında "Arşın mal alan" 1997-ci ilin sentyabr ayında Əməkdar İncəsənət Xadimi Hafiz Quliyevin quruluşunda səhnəyə qoyulmuşdur. Bu günə kimi Teatrın repertuarında möhkəm yer tutur və çox böyük uğurla göstərilir. Tamaşada əsas rolları Azərbaycan Respublikasının Xalq Artistləri - Azər Zeynalov (Əsgər), Şahlar Quliyev (Süleyman), Əməkdar Artistlər - Gülyaz Məmmədova, Fidan Hacıyeva, Zemfira İsmayılova, Natəvan İsmayılova, İnarə Babayeva, Gülüstan Əliyeva, Afaq Abbasova və b. ifa edirlər.



## 26 SENTYABR | 19.00

### DÖVLƏT MAHNI TEATRI

### "Dan ulduzu" ansamblı

*Proqramda Azərbaycan bəstəkarlarının əsərləri səslənəcək*
*Bədii rəhbər: Tariyel Abbasov*



**"DAN ULDUZU" KAMERA-İNSTRUMENTAL ANSAMBLI**

1968-ci ildə Azərbaycan musiqiçisi, pianoçu, əməkdar incəsənət xadimi Gülarə Əliyeva tərəfindən yaradılmışdır. O, həm ansamblın bədii rəhbəri, yaradıcısı, həm də fortepiano partiyalarının ifaçısı idi. Ansamblın adını xalq şairi Nəbi Xəzri təklif etmişdir. "Dan ulduzu" instrumental ansamblı tezliklə Azərbaycan televiziyası və radiosunun nəzdində fəaliyyət göstərməyə başlamışdır. Suriya, Livan, Əlcəzair, İsveçrə, Almaniya, Qvineya-Bisau, Hindistan, Anqola, Finlandiya, Bolqarıstan, İtaliya, Türkiyə və s. xarici ölkələrdə çıxış etmişdir. A.İslamzadə, Ş.Ələkbərova, F.Kərimova, G.Məmmədov, E.Rəhimova, Y.Rzazadə, H.Hadiyev və s. ifaçılar ansamblın solisti olmuşdur. 1991-ci ildə Gülarə Əliyevanın vəfatından sonra ansamblın rəhbəri əməkdar incəsənət xadimi, pianoçu, dirijor Həsənağa Qurbanov olmuşdur. 2007-ci ildən bu günədək ansamblın solisti, tarzən, Azərbaycan Respublikasının əməkdar artisti Tariyel Abbasov ansambın bədii rəhbəridir.

## 27 SENTYABR | 19.00

## AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI

### F.Əmirov "Min bir gecə" ikihissəli balet

| | | |
|---|---|---|
| Baş rolların ifaçıları: | Şəhrizad | **Cəmilə Kərimova**<br>*ilk ifa* |
| | Şəhriyar | **Makar Ferştandt** |
| Yaradıcı heyət: | Quruluşçu baletmeyster | **Nailə Nəzirova**<br>*Əməkdar İncəsənət Xadimi, SSRİ Dövlət Mükafatı laureatı* |
| | Quruluşçu rəssam | **Toğrul Nərimanbəyov**<br>*Azərbaycan Respublikasının Xalq Rəssamı, SSRİ Dövlət Mükafatı laureatı* |
| | Kostyumlar üzrə rəssam | **Tahir Tahirov**<br>*Azərbaycan Respublikasının Xalq Rəssamı* |



**F.ƏMİROV "MİN BİR GECƏ" BALETİ**

Milli balet sənətimizin ən dəyərli nümunələrindən biri olan "Min bir gecə" baletini Fikrət Əmirov 1979-cu ildə yazmışdır. "Min bir gecə"nin librettosu qədim Şərq nağıllarının motivləri əsasında görkəmli yazıçılar Maqsud və Rüstəm İbrahimbəyovlar tərəfindən qələmə alınmışdır. Tamaşanın quruluşunu isə Əməkdar İncəsənət Xadimi Nailə Nəzirova həyata keçirmişdir. Tamaşanın rəssamı SSRİ Xalq Rəssamı Toğrul Nərimanbəyov, geyim üzrə rəssam – Əməkdar Rəssam Tahir Tahirovdur.

1981-ci ildə Moskvada – Kreml sarayında nümayiş olunan bu balet tamaşası və onun yaradıcı heyəti SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

30 il müddətində bu balet tamaşası Rusiyanın bir sıra şəhərlərində və xarici ölkələrdə - Türkiyə, Misir və s. səhnəyə qoyulmuşdur.

"Min bir gecə" baleti Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının repertuarında ən populyar tamaşalardan biridir. Teatrın balet truppası bu tamaşa ilə müxtəlif illərdə Rusiya Akademik Böyük Teatrının səhnəsində, Türkiyə Respublikasında, İraq və Mərakeşdə böyük uğurla çıxış etmişdir.



## 28 SENTYABR | 19.00

## AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI

### Beynəlxalq Musiqi Festivalının bağlanışı
### Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri

*Dirijor: Fəxrəddin Kərimov*

*Proqram:*
*K.M.Veber "Oberon" operasına Uvertüra*
*L.V.Bethoven Fortepiano və orkestr üçün Konsert №1 C-dur, op.15*



**FƏXRƏDDİN KƏRİMOV**
**(dirijor)**

Bakı şəhərində anadan olmuşdur.
1978-ci ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasını (violin), 1988-ci ildə N.A.Rimski-Korsakov adına Leninqrad (opera və simfonik orkestr dirijoru) Dövlət Konservatoriyasını bitirmişdir. 1989-1991-ci illərdə Mariinski Akademik Opera və Balet Teatrında dirijor kimi (bədii rəhbər: V.Gergiyev) təcrübə keçmişdir. 1991-2004-cü illərdə Türkiyədə işləmiş, Rusiya, Belarus, Gürcüstan, Polşa, Rumıniya, Türkiyə, Almaniya, Özbəkistan, Yaponiya, Hollandiya, Fransa, İsveçrədə opera və balet tamaşaları, simfonik konsertləri idarə etmişdir. 1991-ci ildən 2004-cü ilədək Türkiyədə - İstanbul Böyükşəhər Bələdiyəsi Opera və Simfonik orkestrinin baş dirijoru, İzmir Dövlət Opera və Balet teatrının baş dirijoru, İstanbul MSÜ Dövlət Konservatoriyasının Simfonik orkestrinin dirijoru olmuşdur. 2004-cü ildən Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professorudur. Bakı Musiqi Akademiyasının nəzdində Ş.Məmmədova adına Opera studiyasının bədii rəhbəri və baş dirijorudur.
Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Prezident mükafatçısıdır.



## ÜZEYİR HACIBƏYLİ ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİ

Orkestr 1920-ci ilin iyul ayında təşkil olunmuş, təcrübəli mütəxəssis M.İ.Çernyaxovski orkestrin ilk dirijoru təyin edilmişdir. Ötən əsrin 20-30-cu illərindən Böyük Vətən müharibəsinə qədər orkestrlə O.Klemperer (Almaniya), R.Baton (Fransa), F.Ştidri (Avstriya), Q.Mravinski, N.Qolovanov, A.Qauk, A.Pavlov–Arbenin, S.Stolerman kimi bir sıra dünya şöhrətli dirijorlar çıxış etmişdir.
1938-ci ildə orkestr yenidən təşkil olunur. Bu zaman Ü.Hacıbəylinin təşəbbüsü ilə Moskvadan məşhur mütəxəssis, Moskva Konservatoriyasının professoru N.P.Anosov baş dirijor vəzifəsinə dəvət edilir. 1945-1948-ci illərdə Moskva Konservatoriyasının professoru, L.M.Ginzburq simfonik orkestrin baş dirijoru vəzifəsində çalışmışdır.
1948-ci ildən orkestrə SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Niyazi rəhbərlik etməyə başlayır. Həmin vəzifədə o, qısa fasilələrlə 1984-cü ildən ömrünün sonunadək işləmişdir.
Azərbaycan Dövlət Opera və Balet teatrındakı 16 illik uğurlu fəaliyyətindən sonra, yəni 1984-1990-cı illərdə və 1998-ci ildən Simfonik Orkestrin baş dirijoru vəzifəsinə Respublikanın xalq artisti, Dövlət mükafatı laureatı, professor R.Abdullayev təyin olunur. Həmin vəzifəni bu günə kimi şərəflə yerinə yetirməkdədir.
1992-1998-ci illərdə Yalçın Adıgözəlov orkestrin bədii rəhbəri və baş dirijoru kimi fəaliyyət göstərmişdir.
Orkestr R.Abdullayevin rəhbərlik etdiyi illərdə Q.Qarayev, F.Əmirov, C.Hacıyev, C.Cahangirov, A.Məlikov, F.Qarayev, A.Əlizadə, V.Adıgözəlov, M.Mirzəyev, A.Rzayev, M.Quliyev, A.Dadaşov və bir sıra Azərbaycan bəstəkarlarının əsərlərini ilk dəfə olaraq səsləndirilmişdir.
Almaniya, Türkiyə, İsveçrə, Misir, ABŞ, Fransa, Böyük Britaniya, İtaliya, Birləşmiş Ərəb Əmirlikləri kimi xarici ölkələrdə uğurla çıxış etmişdir.
Orkestr onun təsis etdiyi «XX yüzilliyin musiqisi» və hər il keçirilən Beynəlxalq Rostropoviç Fesivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, 2009 və 2012-ci illərdə Bakı Beynəlxalq Caz Festivalı, Vokalçıların Bülbül adına Beynəlxalq müsabiqəsi, 2009, 2011 və 2013-cü illərdə Beynəlxalq Muğam Festivallarının fəal iştirakçısıdır. 2007-2008-ci illərdə kollektiv İtaliyada keçirilən yay Festivallarında uğurla çıxış etmişdir. 2012-ci il oktyabr ayında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri Fransanın Kolon orkestri ilə birgə Parisin məşhur Salle Pleyel zalında Azərbaycan və Fransa bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış etmişdir.





## ANDREY ŞİBKO (RUSİYA)

**(piano)**

Minsk şəhərində anadan olmuşdur. Belarus musiqi kollecində, daha sonra P.I.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında təhsil almışdır (professor V.Kastelskinin sinfi). Ümumittifaq "Gənc istedadlar" adlı müsabiqənin laureatı (1992-ci il, I yer), «D'Angelo» adlı Beynəlxalq müsabiqə qalibi (ABŞ, 1995-ci il), Porto şəhərində Beynəlxalq müsabiqənin xüsusi mükafatına layiq görülmüşdür (1998-ci il, Portuqaliya). "Géza Anda" adına Beynəlxalq müsabiqənin laureatı (2000-ci il, İsveçrə), "World Piano Competition" adlı Beynəlxalq müsabiqənin laureatı adına layiq görülmüşdür (2002-ci il, London). Bir çox festivallarda iştirak etmişdir: Carintischer Sommer (Avstriya), Viersener Klaviersommer (Almaniya), Maratea Musica (İtaliya) və s. Dünyanın məşhur konsert salonlarında çıxış etmişdir: Suntory Hall, Casals Hall (Yaponiya), Tonhalle (İsveçrə), Queen Elisabeth Hall və Royal Festival Hall (London). Almaniya, ABŞ, Yaponiya, Cənubi Koreya, İsveçrə, İtaliya, Portuqaliya, Avstriya, Böyük Britaniya, İspaniya, Polşa və s. xarici ölkələrdə çıxış etmişdir. 1991-ci ildən P.I.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında dərs deyir, dosentdir.





15m

Ar 2015
1516

HEYDƏR ƏLİYEV
FONDU

**Azərbaycan Respublikası**
Mədəniyyət və Turizm Nazirliyi

103401